Təhsil millətin gələcəyidir!

Heydər Əliyev

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

18 oktyabr 2025-ci il №39 (9145) www.muallim.edu.az muallim@media.edu.az

**18 OKTYABR MÜSTƏQİLLİYİN BƏRPASI GÜNÜDÜR**

## İndi biz vətənimizin, torpağımızın, ölkəmizin SAHİBİYİK



“Müstəqilliyi əldə etmək, dövlətin tam müstəqil olmasına nail olmaq üçün xalqımız çətin yollardan keçmişdir. Ancaq müstəqilliyi əldə saxlamaq, onu möhkəmləndirmək, dövlətin tam müstəqilliyinə nail olmaq və bütün vətəndaşlara müstəqil dövlət şəraitində layiqli həyat tərzi təmin etmək daha çətindir. Bunun üçün biz çox iş görməliyik. Qarşımızda böyük vəzifələr durur... Bizim gələcək taleyimiz öz əlimizdədir. İndi biz vətənimizin, torpağımızın, ölkəmizin sahibiyik, öz taleyimizi özümüz həll etmək imkanı qazanmışıq. Ancaq bu imkanları əldə saxlamaq, müstəqilliyi daimi etmək və ölkəmizi inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmaq, Dünya Birliyində layiqli yer tutmaq qarşımızda duran əsas vəzifələrdir”.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın Müstəqillik Günü münasibətilə xalqa təbrikindən
*(18 oktyabr 1993-cü il)*

## “Mən bu şəxs üçün müharibəni bitirdim”

**Donald TRAMP,**
*ABŞ Prezidenti*

“Budur, mən bu yaxınlarda bu şəxs üçün müharibəni bitirdim. Azərbaycan, işimi bəyəndinizmi? Bəs Sizin həmkarınız haradadır? Budur, buradadır. Siz indi artıq yola gedirsiniz, elə deyilmi? Onlar 32 il müharibə etdilər, biz isə bir saata bu məsələni həll etdik, elədirmi? İndi onlar yola gedirlər, bu yaxşıdır, düşünürəm ki, bu əladır.

Burada Ermənistan və Azərbaycan var. Biz bu müharibəni bitirdik. Mənim onlarla görüşüm Oval ofisdə baş tutdu. Onlar 31 il vuruşdular, ağlasığmaz bir rəqəmdir. Oval ofisdə bir-birinə əks tərəfdə əyləşmişdilər. Bir saatdan sonra işimiz bitəndə hər ikisi bir-birini qucaqlayırdı. İndi də onlar dostdurlar və çox gözəl anlaşırlar. Ona görə də hər ikinizə təşəkkür etmək istəyirəm. Bu, həqiqətən inanılmazdır. Çox sağ olun”.




## Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 13-də Şarm əl-Şeyx şəhərində keçirilən Yaxın Şərq Sülh Sammitində iştirak edib




## Müasir iş yerləri öyrənmə mərkəzinə çevrilməlidir



Bax səh. 4

## Azərbaycanlı gənc robot ixtira edib



Bax səh. 5

## “İnternetdən təhlükəsiz istifadə bacarıqları”




Bax səh. 6

# MÜSTƏQİLLİYİMİZİN İŞIĞINDA





*Heydər ƏLİYEV, Ümummilli Lider*

**"Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq"**

*İlham ƏLİYEV, Azərbaycan Prezidenti*

**"İndiki gənclər müstəqillik dövründə formalaşırlar. Bu, böyük xoşbəxtlikdir, böyük səadətdir... Bizim böyük xoşbəxtliyimiz ondadır ki, bu gün müstəqil ölkə kimi yaşayırıq. Azərbaycan xalqı müstəqilliyə qovuşmuşdur"**

# Təhsilimiz bu gün

## Təhsil sistemi müstəqil dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi

Azərbaycanın dövlət müstəqilliyinin bərpası xalqımızın tarixində dönüş nöqtəsi oldu. Bu illər ərzində təhsil sistemi müstəqil dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi ön plana çəkildi. Çünki müstəqilliyi qorumağın, gələcəyi formalaşdırmağın ən etibarlı yolu məhz elmdir, təhsildir, biliyə söykənən insan kapitalının formalaşdırılmasıdır. Bu gün artıq Azərbaycan təhsili müasir tələblərə cavab verən, qlobal təhsil məkanına inteqrasiya edilən və milli-mənəvi dəyərlərə əsaslanan dayanıqlı bir sistemə çevrilmişdir. Bu sistem Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu milli təhsil siyasəti əsasında yaranmışdır. Ümummilli Liderin "Təhsil millətin gələcəyidir" fikri bu gün də təhsil siyasətimizin ideoloji əsasını təşkil edir.

Hələ müstəqilliyin ilk illərində ölkəmiz iqtisadi və siyasi çətinliklərlə üzləşsə də, Heydər Əliyev təhsili dövlətin prioritet istiqaməti kimi müəyyənləşdirdi. Ulu Öndərin rəhbərliyi ilə təhsil qanunvericiliyi yeniləndi, milli kurikulumlara əsaslanan tədrisin yeni məzmunu formalaşdı, beynəlxalq əməkdaşlıqlar bərpa olundu. 1990-cı illərin sonlarından etibarən təhsil sisteminin bərpası və inkişafı istiqamətində görülən işlər gələcək islahatların elmi-praktik təməlinə çevrildi.

Ulu Öndərin təşəbbüsü ilə qəbul edilən "Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramı" (1999) ölkə təhsilinin modernləşməsində mühüm mərhələ oldu. Bu proqram milli məzmunlu tədris planlarının, yeni qiymətləndirmə mexanizmlərinin və idarəetmə strukturunun formalaşmasına geniş imkan yaratdı.

Ulu Öndərin ideyalarını uğurla davam etdirən Prezident İlham Əliyev təhsil siyasətini müasir dövrün çağırışlarına uyğun şəkildə daha da təkmilləşdirdi. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən islahatlar təhsil sistemində keyfiyyət və idarəetmə mədəniyyətini tamamilə dəyişdi.

Artıq son 20 ildə ölkənin bütün bölgələrində yeni tipli məktəblər inşa edilmiş, tədris prosesinə müasir texnologiyalar gətirilmiş, təhsil infrastrukturu əsaslı şəkildə yenilənmişdir. "Ağıllı məktəb" və "ağıllı sinif" modelləri, elektron tədris resursları və rəqəmsal platformalar təhsilin yeni simasına çevrilmişdir. Onlar bu gün də genişlənməkdə və çoxalmaqdadır.

Səriştəəsaslı kurikulumların tətbiqi tədris prosesində əhəmiyyətli dönüş yaratmışdır. Bu yanaşma şagirdlərin yalnız bilik əldə etməsini deyil, həm də düşünmə, yaradıcılıq və əməkdaşlıq bacarıqlarının inkişafını hədəfləyir. Artıq Azərbaycan məktəbi şagirdyönümlü təlim fəlsəfəsinə əsaslanır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə təhsilin idarə olunmasında şəffaflıq, hesabatlılıq və effektivlik prinsipləri ön plana çıxarılmışdır. Dövlət İmtahan Mərkəzi və Elm və Təhsil Nazirliyinin birgə fəaliyyəti nəticəsində obyektiv qiymətləndirmə sistemi yaradılmışdır. Həmçinin müəllimlərin işə qəbulu ilə bağlı optimal bir sistem formalaşdırılmışdır. Bu sistem şagird və tələbələrin, eləcə də işə qəbul olunan müəllimlərin bilik səviyyəsini real göstəricilərlə qiymətləndirməyə imkan verir.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" (2021) sənədində təhsil sahəsi strateji istiqamət kimi müəyyən edilmiş, insan kapitalının inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biri kimi dəyərləndirilmişdir.

Son illərdə qəbul olunan "2022-2026-cı illərdə təhsilin inkişafına dair Dövlət Strategiyası" (2022) da bu istiqamətdə fəaliyyətin ardıcıl şəkildə davam etdirilməsini təmin edir. Strategiyada əsas məqsəd təhsilin keyfiyyətini yüksəltmək, bərabər imkanlar yaratmaq və innovativ yanaşmaları stimullaşdırmaqdan ibarətdir.

Azərbaycan təhsili bu gün sürətli texnoloji inkişaf dövrünün tələblərinə cavab verir. STEAM təhsili, robototexnika, proqramlaşdırma və rəqəmsal savadlılıq sahələrində yeni layihələr həyata keçirilir. Gənclərimizin beynəlxalq olimpiadalarda və startap müsabiqələrində qazandığı uğurlar bu istiqamətdə atılan addımların nəticəsidir.

Eyni zamanda, inklüziv təhsil siyasəti sahəsində cəmiyyətin bütün üzvləri üçün bərabər təhsil imkanları yaradılır. Xüsusi qayğıya ehtiyacı olan uşaqların tədris prosesinə cəlb edilməsi dövlətin sosial ədalət prinsipinə sadiqliyinin bariz nümunəsidir.

Ali təhsil müəssisələrinin beynəlxalq əlaqələrinin genişlənməsi, elmi tədqiqatların stimullaşdırılması və universitetlərin qlobal reytinqlərdə irəliləməsi dövlətimizin təhsil siyasətinin uğurunu göstərir.

ADA Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Slavyan Universiteti kimi ali təhsil ocaqları beynəlxalq layihələrdə fəal iştirak edir, dünya universitetləri ilə ikili diplom proqramları həyata keçirir.

Bu gün ali təhsil yalnız ixtisas biliklərinin verilməsi ilə məhdudlaşmır, gənclərin düşünən, yaradan və məsuliyyət daşıyan vətəndaş kimi formalaşmasına xidmət edir.

Təhsil sisteminin ən mühüm dayağı olan müəllimlərin sosial statusunun və peşəkar nüfuzunun yüksəldilməsi dövlətin daim diqqətindədir. Müəllimlərin diaqnostik qiymətləndirilməsi, əməkhaqlarının mərhələli şəkildə artırılması və peşəkar inkişaf proqramları bu sahədə mühüm addımlardır.

Bu gün müəllim təkcə bilik ötürən deyil, həm də texnologiyalardan bacarıqla istifadə edən, şagirdin şəxsiyyət kimi formalaşmasına istiqamət verən bələdçidir. Onun əməyinin cəmiyyət tərəfindən yüksək qiymətləndirilməsi təhsilin keyfiyyətinə birbaşa təsir göstərir.

Bu gün Azərbaycan təhsili milli dəyərlərə söykənən, eyni zamanda qlobal elmi-texnoloji proseslərlə ayaqlaşan bir sistem kimi formalaşmışdır. Ölkəmizin təhsil siyasəti gələcək nəsillərin intellektual potensialını reallaşdırmağa, onların dünyaya açıq, bilikli və vətənpərvər vətəndaşlar kimi yetişməsinə xidmət edir.

Prezident İlham Əliyevin 2023-cü il 28 noyabr tarixli Sərəncamı əsasında Qarabağ Universitetinin yaradılması ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam bərpası ilə nəticələnən tarixi qələbələrin təntənəsi olmaqla Azərbaycanın ali təhsil sahəsindəki mühüm nailiyyətidir. Ölkəmizin tam suverenliyinin bərpa olunmasından sonra regionda həyata keçirilən bərpa və quruculuq işlərinin tərkib hissəsi olaraq işğaldan azad olunmuş ərazilərimizdə müasir təhsil infrastrukturu qurulur. Artıq Qarabağımızda bir sıra təhsil müəssisələri müəllim və şagirdlərin ixtiyarına verilib.

Azərbaycan təhsili bu gün sabaha doğru inamla addımlayır. Çünki bu təhsil Heydər Əliyev ideyalarının, Prezident İlham Əliyevin quruculuq fəaliyyətinin və Azərbaycan müəlliminin fədakar əməyinin bəhrəsidir.

**Ənvər ABBASOV,**
*Bakı Slavyan Universitetində rektorun məsləhətçisi, dosent, Əməkdar müəllim*

# 2027–2030-cu illər üzrə elm və təhsil hədəfləri müzakirə edilib

## "Təhsil" üzrə Alt İşçi Qrupunun növbəti iclası keçirilib




Oktyabrın 13-də Elm və Təhsil Nazirliyində "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın hazırlanması məqsədilə yaradılmış "Təhsil" üzrə Alt İşçi Qrupunun növbəti iclası keçirilib.

Elm və təhsil naziri Emin Əmrullayevin iştirakı ilə keçirilən iclasa aidiyyəti dövlət qurumlarının nümayəndələri də qatılıblar.

İclas çərçivəsində 2027-2030-cu illərdə təhsil sahəsində həyata keçirilməsi planlaşdırılan islahatlar, strateji fəaliyyət istiqamətləri və Tədbirlər Planı ətraflı şəkildə müzakirə olunub.

İclas zamanı sözügedən İşçi Qrupunun üzvləri tərəfindən müxtəlif istiqamətlər üzrə təkliflər təqdim olunub, mövcud problemlər və inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb.



## SAF 2025

# Beynəlxalq STEAM Azərbaycan Festivalı keçiriləcək




Elm və Təhsil Nazirliyinin dəstəyi və "STEAM Azərbaycan" layihəsinin təşkilatçılığı ilə 17-19 noyabr tarixlərində Bakı Ekspo Mərkəzində Beynəlxalq STEAM Azərbaycan Festivalı (SAF 2025) keçiriləcək.

Festivalın keçirilməsində əsas məqsəd STEAM əsaslı tədrisin təşviqi, təhsilalanlar arasında XXI əsr bacarıqlarının inkişaf etdirilməsi, yaradıcı təhsilalanların aşkara çıxarılması, eləcə də STEAM əsaslı yanaşmanın tətbiqi ilə səmərəli istifadəyə dair innovativ həll və layihələrin hazırlanmasının təşviq edilməsidir.

Bu il artıq 5-ci dəfə keçirilən STEAM Azərbaycan Festivalı çərçivəsində 16 əsas və 2 alt kateqoriya üzrə yarışlar təşkil olunacaq. Kateqoriyalara "Gələcəyin mühəndisləri" (Engineers of Future), "Kinematoqrafiya" (VidX:AI Motion Challenge), "Robotların mübarizəsi" (VEX IQ/VEX Robotics Competition), "Mexatronika" (Mechatronics), "Suüstü gəmi" (Boat Racing), "Bərpaolunan enerji" (H2 Pro Grand Prix Pro), "Dron texnologiyaları" (FlyTech), "Sualtı gəmi" (Deep Dive), "İnnovasiya və sahibkarlıq" (İnnovation and Enterpreneurship), "Robotlarla futbol" (RoboSoccer), "Çevik və sürətli" (Fast and Furious), "Peyk texnologiyaları" (CubeSat), "Kompüterəsaslı layihələndirmə" (NextGen Creators), "Kompütürəsaslı istehsal" (Imagination to reality), "Strateji düşüncə və fəza təfəkkürü" (Rolling minds), "Robot oyunları" (Submerged/RoboGames) daxildir.

Festivalda iştirak məqsədilə ümumilikdə 5000-dən çox iştirakçı qeydiyyatdan keçib. Onlardan 4791 nəfəri yerli, 261 nəfəri isə 26 xarici ölkəni təmsil edən iştirakçıdır.

Qeyd edək ki, STEAM - 5 əsas sahənin birgə tədrisidir. Belə ki, STEAM əsaslı tədris modeli elm (Science), texnologiya (Technology), mühəndislik (Engineering), incəsənət (Art), riyaziyyatı (Math) inteqrasiya olunmuş şəkildə tədris etmək ideyası üzərində qurulub.

# "Azərbaycanın dayanıqlı inkişafı naminə təhsilə investisiya"



## Nazir müavini İdris İsayev VII Dayanıqlı İnkişaf Məqsədləri Dialoqunda iştirak edib

Oktyabrın 14-də Bakıda "Azərbaycanın dayanıqlı inkişafı naminə təhsilə investisiya" mövzusunda 7-ci Dayanıqlı İnkişaf Məqsədləri Dialoqu keçirilib.

Tədbir Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası, İqtisadiyyat Nazirliyi və BMT-nin birgə təşəbbüsü ilə baş tutub.

Açılış mərasimində çıxış edən BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreeva təhsili dünyanı dəyişdirən ən güclü vasitə kimi qiymətləndirib və "Azərbaycanın dayanıqlı inkişafı naminə təhsilə investisiya" proqramının növbəti mərhələsinin 2026-2030-cu illəri əhatə edəcəyini diqqətə çatdırıb.

Mərasimdə iştirak edən elm və təhsil nazirinin müavini İdris İsayev çıxışında bildirib ki, təhsilin inkişafı və innovativ ixtisasların geniş tətbiqi hər bir ölkə üçün, o cümlədən Azərbaycanın dayanıqlı inkişafı üçün strateji əhəmiyyət kəsb edir. Təhsilə yatırılan investisiyalar strateji baxımdan nəticəyönlüdür. Nazir müavini qeyd edib ki, təhsilin inkişafı hər bir sahənin inkişafına təkan verir və bu istiqamətdə dövlət tərəfindən mühüm addımlar atılır. Təhsil yalnız bilik və bacarıq qazanmaqdan ibarət deyil. Təhsil ölkənin iqtisadi inkişafını, sosial rifahını, idarəetmə strukturunu da müəyyənləşdirir. Təhsil yoxsulluğun azalmasına, sosial və gender bərabərliyinin təmin olunmasına mühüm təsir göstərir.

Çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Azərbaycanda son illərdə təhsilin inkişafına xüsusi diqqət göstərildiyini diqqətə çatdırıb və təhsilin inkişafına qoyulan bu dəyəri gələcək üçün ən böyük sərmayə kimi qiymətləndirib. Birgə həyata keçirilən layihələrdən söz açan Bahar Muradova qeyd edib ki, bu təşəbbüslər sadəcə fərdi taleləri dəyişmir, regionlarda sosial ədaləti və gender bərabərliyini artırır.

Tədbir çərçivəsində BMT-nin iqtisadçısı Hurşid Rüstəmov tərəfindən "Azərbaycanda təhsil sektorunda öyrənmə nəticələrinin, fərqliliklərin və maliyyələşmənin təhlili" adlı hesabatın nəticələri təqdim olunub.

Daha sonra "Azərbaycanın dayanıqlı inkişafı üçün təhsilə investisiya" adlı panel müzakirəsi keçirilib. Panelə iqtisadiyyat nazirinin müşaviri, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi Hüseyn Hüseynov moderatorluq edib.

Müzakirələrdə Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Sadiq Əliyev, Bakı Mühəndislik Universitetinin rektoru Yaqub Piriyev, BMT-nin Rezident Koordinatoru Ofisinin rəhbəri Kanako Mabuçi və "Gender Hub Azerbaijan" layihəsinin həmtəsisçisi Məryəm Məcidova iştirak ediblər.

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova Azərbaycan universitetlərinin beynəlxalq reytinq göstəriciləri barədə məlumat verib. Son illərdə açıq şəkildə yüksələn dinamikanın olduğunu qeyd edib.

Tədbir sual-cavab sessiyası ilə yekunlaşıb.

# Mədəniyyət və Elm və Təhsil nazirliklərinin birgə işçi qrupunun növbəti görüşü keçirilib



## Mədəniyyət və təhsil sahələrinin inteqrasiyası, institusional əməkdaşlığın gücləndirilməsi, eləcə də birgə fəaliyyətin prioritet istiqamətləri müzakirə olunub

Mədəniyyət və Elm və Təhsil nazirlikləri arasında əməkdaşlıq çərçivəsində yaradılmış birgə işçi qrupunun növbəti görüşü keçirilib.

Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən Mədəni və Yaradıcı Sənayelərin İnkişaf Mərkəzində keçirilən görüşdə mədəniyyət nazirinin müavini Səadət Yusifova, elm və təhsil nazirinin müavini Həsən Həsənli, həmçinin hər iki nazirliyin nümayəndələri iştirak ediblər.

Görüşdə mədəniyyət və təhsil sahələrinin inteqrasiyası, institusional əməkdaşlığın gücləndirilməsi, eləcə də birgə fəaliyyətin prioritet istiqamətləri müzakirə olunub. Həmçinin işğaldan azad olunmuş ərazilərdə mədəniyyət və təhsil infrastrukturunun əlaqələndirilməsi, yaradıcı təlim mühitinin formalaşdırılması, mədəniyyət təhsili üzrə kurikulumun təkmilləşdirilməsi və istedadlı şagirdlərin inkişafı məsələlərinə xüsusi diqqət yetirilib.

Görüşün sonunda iştirakçılar birgə fəaliyyətin daha səmərəli həyata keçirilməsi və müvafiq istiqamətlər üzrə icra mexanizmlərinin hazırlanması barədə razılığa gəliblər.

# Müasir iş yerləri öyrənmə mərkəzinə çevrilməlidir



## Məktəblər sabahın əmək bazarını öncədən hiss etməyi bacarmalıdır

Oktyabrın 14-də Xorvatiyanın Dubrovnik şəhərində Dünya Bacarıqları 2025 (World Skills 2025) konfransı başlayıb. Bu tədbir dünyada qlobal bacarıqlar gündəminin əsas məqamlarını müəyyənləşdirən bir platforma kimi tanınır. Konfransda sadəcə bacarıqlar haqqında danışanlar yox, onları gerçəkdən formalaşdıran şəxslər, biznes, sənaye, dövlət və təhsil sahələrinin liderləri, eləcə də “World Skills” yarışmasının istedadlı qalibləri iştirak edir.

OECD-nin Təhsil və bacarıqlar departamentinin direktoru Andreas Şleyxer növbəti məqaləsində iştirak etdiyi tədbirdə səsləndirilən mesajlardan bəhs edir.

“Azərbaycan müəllimi” A.Şleyxerin məqaləsini oxucularla bölüşür.

**Rəqəmsal və yaşıl keçid: əmək dünyasında yeni dövr**

Texnologiyanın daha çox iş yeri yaradacağı, yoxsa məhv edəcəyi hələ də müzakirə mövzusudur. Amma bir həqiqət dəyişməzdir: rəqəmsal və yaşıl transformasiya əmək dünyasının bütün qaydalarını dəyişməkdədir. Yaranan yeni iş yerləri sadəcə mövcud olanların əvəzlənməsi deyil, onlar tamamilə yenidən düşünülür. Bu isə o deməkdir ki, bacarıqların artırılması (upskilling) və yenidən öyrənilməsi (reskilling) artıq əmək bazarının əsas tələbinə çevrilib. Əvvəllər biz işimizi yerinə yetirmək üçün öyrənirdik, bu gün isə öyrənmək, artıq işin özüdür.

Buna görə də müasir iş yerləri həm də bir öyrənmə mərkəzinə çevrilməlidir. Məktəblər isə dünənin deyil, sabahın əmək bazarını öncədən hiss etməyi bacarmalıdır.

**Peşə təhsili: uğurlu gələcəyə körpü**

Bütün bu dəyişikliklər peşə təhsilinin rolunu daha da ön plana çıxarır. Uğur qazanan ölkələr, məhz tətbiqi bacarıqlara və çevik öyrənmə sistemlərinə sərmayə qoyan ölkələr olacaq. Peşə təhsili təhsil ilə iqtisadiyyat arasında strateji körpü rolunu oynayır. O, gəncləri həm dərhal işə hazır bacarıqlarla təchiz edir, həm də sənaye dəyişəndə böyüklərə yeni istiqamətlərə yönəlmək imkanı verir. Yəni bacarıq boşluqları inkişaf imkanlarına çevrilir.

Süni intellekt artıq bəzi məzunlardan daha yaxşı esse yaza bilir. Amma o, nə elektrik stansiyasını idarə edə bilər, nə reaktiv mühərriki təmir edə, nə də saçınızı kəsə bilər. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) məlumatları göstərir ki, gələcəyin işi dərin şəkildə insan təbiətinə əsaslanır, yəni mürəkkəb münasibətləri idarə etmək, qeyri-müəyyənlik şəraitində etik qərarlar qəbul etmək və həqiqətən yenilik yaratmaq qabiliyyətinə.

**Bacarıqların rəngi yox, uyğunlaşma gücü var**

Artıq “yaşıl bacarıqlar” və “köhnə sənaye bacarıqları” arasında sərhəd çəkmək mənasızdır. Yaşıl mühəndis və ya “qəhvəyi” mühəndis yoxdur, yalnız müxtəlif sahələrdə öz bilik və bacarıqlarını tətbiq edə bilən mühəndislər var. İqtisadiyyatlar daha dayanıqlı olduqca, insanlar da işlərini dəyərləri ilə uzlaşdırmaq istəyirlər.

Ən önəmlisi isə işin rəngi deyil, işçinin çevikliyidir. Pandemiya dövründə bu dərsi sərt şəkildə öyrəndik: qonaqpərvərlik sahəsində bacarıqlar kifayət qədər olsa da, səhiyyədə eyni bacarıqlara çatışmazlıq vardı. Bu uçurumu yalnız çevik və dinamik ixtisas sistemləri ilə keçmək mümkündür.

**Peşə təhsilinin uğuru: sənaye ilə əməkdaşlıq**

Lakin bütün bunlar nəzəriyyədə asan görünür. Reallıqda peşə təhsili yalnız o zaman işləyir ki, işəgötürənlər əsas rolu öz üzərlərinə götürürlər. Ən yaxşı nəticələr, sinif otaqları ilə istehsalat sahələri birləşəndə əldə olunur, yəni öyrənmək təkcə öyrədilməklə deyil, həm də yaşanmaqla mümkün olur.

Avstriya, Almaniya, İsveçrə, Niderland, Danimarka, Macarıstan və İrlandiya kimi ölkələrdə gənclər yalnız nəzəriyyə öyrənmirlər, bu bilikləri real iş mühitlərində tətbiq edirlər. Bu sistemlərin effektivliyi də buradan qaynaqlanır. Yunanıstan və İtaliya kimi ölkələr isə hələ məktəblə iş dünyası arasında olan boşluqları doldurmağa çalışırlar.

Müəllimləri daim sənaye bilikləri ilə yeniləməyə çalışmaq bizi həmişə geridə saxlayacaq. Daha ağıllı yol: sənayeni sinif otağına gətirməkdir. Şirkətlərdə çalışan mütəxəssislərə təlim, mentorluq və öyrətmə bacarıqları qazandırmaq vacibdir. Çünki yaxşı elektrikçi dünyanı naqillərlə bağlamaq istəyir, masa arxasında oturmaq yox.

Buna görə də daha çevik modellərə ehtiyac var: yarımştat müəllimlik, birgə müqavilələr, həm istehsalat, həm tədris sahəsində fəaliyyət göstərən rollar.

**Birgə yaradılan sistemlər - gələcəyin açarı**

Bundan əlavə, işəgötürənlərlə birlikdə standartlar, proqramlar və sertifikatlar üzərində işləmək də önəmlidir. Çünki bu, həm etimad yaradır, həm də peşə təhsilini aktual və nüfuzlu edir. Əgər işəgötürənlərin masada yeri yoxdursa, peşə təhsili cazibəsini və dəyərini itirir.

İşəgötürənlər təkcə müştəri yox, həm də birgə imkanlar yaradan tərəf olmalıdırlar. Onlar nə öyrədildiyinə, necə öyrədildiyinə və uğurun necə ölçüldüyünə dair əsas söz sahibi olmalıdırlar. Onlar real, yüksək keyfiyyətli iş təcrübəsi üçün qapılarını açmalıdırlar. Gerçək dünyada qazanılan bacarıqlar daha qalıcıdır. Bizə əməkdaşlığı istisna yox, norma kimi qəbul edən sistemlər lazımdır.

**Nəticə: sabahın iş dünyası üçün hazırlaşmaq**

“World Skills 2025” konfransından siyasətçilərə verilən əsas mesaj aydındır: təkcə dünənin işlərini qorumaq yox, insanları sabahın rollarına hazırlamaq lazımdır. Məktəblərlə iş yerlərini təkcə əlaqələndirmək yox, onları bir-birinə sıx şəkildə toxumaq vacibdir. İşəgötürənləri sadəcə dinləmək yox, onlarla birgə yaratmaq gərəkdir. Sistemləri sadəcə rəqəmsallaşdırmaq yox, onları daha insan yönümlü etmək, daha ağıllı göstəricilər və daha yaxşı əməkdaşlıqlara hazırlamaq lazımdır.

Qeyd edək ki, “World Skills” peşə bacarıqları üzrə dünya və milli çempionatlar təşkil edən və dünyanın müxtəlif yerlərində iki ildən bir keçirilən beynəlxalq xeyriyyə təşkilatıdır, həmçinin peşə bacarıqları ilə bağlı konfranslara ev sahibliyi edir. “World Skills” özünü bacarıqlar üçün qlobal mərkəz kimi təqdim edir.

**Oruc MUSTAFAYEV**

# İqtisadiyyat üzrə Nobel laureatlarının adları açıqlanıb






İsveç Kral Elmlər Akademiyası Alfred Nobelin xatirəsinə iqtisadi elmlər sahəsində Sveriges Riksbank adına mükafatın verilməsi haqqında qərar qəbul edib. 2025-ci il üzrə iqtisadiyyat sahəsində Nobel mükafatının Filipp Aqhion (Fransa) və Piter Hauttinə (Kanada) “İnnovasiyaya əsaslanan iqtisadi artımı izah etdiklərinə”, yarısının isə Joel Mokirinə (ABŞ) “Texnoloji tərəqqi yolu ilə davamlı böyümənin ilkin şərtlərini müəyyən etdiyinə görə” verilməsinə qərar verilib.

Nobel Komitəsi bildirib ki, Mokir davamlı böyümənin yeni normal halına gəlməsinin səbəblərini açmaq üçün bir vasitə kimi tarixi mənbələrdən istifadə edib. Aqhion və Hauttin davamlı böyümənin arxasında duran mexanizmləri də araşdırıblar.

Komitənin press-relizində qeyd olunur ki, alimlər yeni texnologiyaların davamlı böyüməyə necə kömək edə biləcəyini göstəriblər: “Son iki əsrdə, tarixdə ilk dəfə olaraq, dünya davamlı iqtisadi artımın şahidi oldu. Bu, çox sayda insanın yoxsulluqdan çıxmasına kömək etdi və rifahımızın əsasını qoydu. Builki iqtisadiyyat mükafatı laureatları innovasiyanın gələcək tərəqqiyə necə təkan verdiyini izah edirlər”.

Qeyd edək ki, 2025-ci ilin laureatlarına mükafatların təqdimolunma mərasimi dekabrın 10-da Alfred Nobelin doğum günündə Oslo və Stokholmda keçiriləcək.

# Nobel laureatı: “Məəttəl qalmışam...”

2025-ci il oktyabrın 7-də fizika üzrə Nobel mükafatına layiq görülən Con Klark (John Clarke) mükafat elan olunduqdan qısa müddət sonra baş tutan bu müsahibədə hələ də xəbərin təsirindən çıxa bilmədiyini deyir. Nobel Mükafatları Komitəsinin rəsmi *www.nobelprize.org* saytının elmi redaktoru Adam Smitə verdiyi eksklüziv müsahibədə alim təxminən 40 il əvvəl Kaliforniyanın Berkli şəhərindəki laboratoriyada birlikdə çalışdığı həmkarları – Con Martinis (John Martinis) və Mişel Devoreni (Michel Devoret) yüksək qiymətləndirir. C.Klark o dövrdəki saysız müzakirələri və sonda Nobel mükafatına layiq görülən kəşflərə gətirib çıxaran genişmiqyaslı elmi işlərini xatırlayır. “Azərbaycan müəllimi” müsahibəni oxucuları ilə bölüşür:



## “Bu kəşfin 40 il ərzində bu qədər davamlı əhəmiyyət daşıyacağını heç ağlımıza da gətirməzdik”

*Adam Smit:* Salam, professor Klark. Mən Adam Smitəm. Təəssüf edirəm ki, sizi elə Kral Elmlər Akademiyasındakı mətbuat konfransından dərhal sonra narahat edirəm.

*Con Klark:* Bəli, düşünürəm ki, bu gün çox məşğul bir gün olacaq.

*Adam Smit:* Çox təşəkkür edirəm və sizi bu mükafat münasibətilə ürəkdən təbrik edirəm. Mükafat xəbəri təzə ikən, bu barədə nə hiss edirsiniz?

*Con Klark:* Nə deyə bilərəm ki? Məəttəl qalmışam. Hələ də sarsılmış vəziyyətdəyəm. Çox xoşbəxt və məmnunam ki, Con Martinis və Mişel Devore bu mükafatı mənimlə birgə bölüşdülər. Bu mükafatı onların ikisi olmadan qəbul etməyi ağlıma belə gətirə bilməzdim. Bu, tamamilə mümkünsüz olardı. Aydındır ki, Nobel Komitəsi də bunu tam şəkildə dərk edirdi.

*Adam Smit:* Bu mükafat bizi 40 il əvvələ – Berkli laboratoriyanıza aparır. O zaman Mişel Devore postdoktorant idi, Con Martinis isə doktorant tələbə idi.

*Con Klark:* Tamamilə doğrudur.

*Adam Smit:* O dövrdəki təcrübələri və zamanın abhavasını necə xatırlayırsınız?

*Con Klark:* Əvvəla, demək istərdim ki, belə parlaq insanlarla işləmək imkanına sahib olduğum üçün hər zaman özümü çox şanslı hiss etmişəm. Deyildiyi kimi, Mişel postdoktorant idi, Con Martinis isə magistratura tələbəsi. Nə deyə bilərəm? Onlar bir çox şeyi dərk edirdilər. Biz çoxsaylı müzakirələr aparmışdıq. Sadəcə bir neçə saatlıq yox, bir neçə günlük davam edən müzakirələr... Bu işi tamamlamaq bizə, indi dəqiq xatırlamıram, amma həqiqətən çox uzun vaxt apardı.

*Adam Smit:* Bəzən elə olur, deyilmi? Elə bir uyğun insan qrupu bir araya gəlir ki, hər şey işləməyə başlayır.

*Con Klark:* Tamamilə doğrudur. Açıq deyim ki, bu işlərin heç biri onların ikisi olmadan baş tutmazdı. Onlar sadəcə parlaq insanlar idilər və hələ də elədirlər.

*Adam Smit:* Sizin üçlüyünüz açıq-aşkar sehrli bir kombinasiyadır. Mətbuat konfransında da digər laureatları – Brayan Cozefson və Antoni Leccettini qeyd etdiniz. Elmdə irəliləyiş bəzən sadəcə bir-birini qığılcımlandıran insanları tapmaqdan ibarətdir, elə deyilmi?

*Con Klark:* Bəli. Mən Brayan Cozefsonla birgə doktorant olmuşam. O, məndən iki il öndə idi. Bu sahə ilə məşğul olmağa başlayanda biz bir-birimizi çox yaxından tanımağa başladıq. Həmişə İngiltərənin Kembric şəhərində yaşamışdı və hələ də orada yaşayır. Antoni Leccettini də yaxşı tanıyıram, amma Brayan Cozefsonun mənə təsiri çox böyük olmuşdu. Sonradan biz hər ikimiz Brayan Pippardın rəhbərliyi altında çalışdıq. Onun da karyerama təsiri çox böyük olmuşdu. Həm də çox mehriban bir insan idi. Onu da çox yaxşı tanıyırdım.

*Adam Smit:* Bəli, Brayan Cozefson bu gün də insanları düşündürməyə və onları çətin suallarla üzləşdirməyə davam edir.

*Con Klark:* Bəli.

*Adam Smit:* O təcrübələri etdiyiniz zaman, makroskopik kvant tunelini nümayiş etdirməyin əhəmiyyətinin fərqində idinizmi?

*Con Klark:* Düşünürəm ki, müəyyən qədər fərqində idik. Yadımdadır, bu işlə bağlı təqdimat vermək üçün müxtəlif konfranslara dəvət olunurduq. İnsanların etdiyimiz işi yüksək qiymətləndirdiyi bizim üçün aydın idi. Amma bu kəşfin sonrakı 40 il ərzində bu qədər davamlı əhəmiyyət daşıyacağını, açığı, heç ağlımıza da gətirməzdik.

*Adam Smit:* Çox gözəl. Sizinlə danışmaq böyük zövq verdi. Sizə çox təşəkkür edirəm.

*Con Klark:* Mən də sizə təşəkkür edirəm. Sizinlə danışmaq mənim üçün də xoş idi.

*Adam Smit:* Qarşıdakı bu çox məşğul gününüzdə sizə uğurlar arzulayıram.

*Con Klark:* Oldu. Sizinlə danışmaq xoş idi və bir daha təşəkkür edirəm.

*Adam Smit:* Təşəkkürlər. Sağ olun.

**Hazırladı: Oruc MUSTAFAYEV**

# Tələbə təqaüdləri

## Kim daha çox təqaüd alır?

**Müasir təhsil sistemi tələbəyönümlülüyü ilə fərqlənir. Çox deyil, 5-10 il əvvəlki illərlə müqayisə edəndə bunu daha aydın görmək olur. İndi tələbə sadəcə "əlaçı", "zərbəçi" təqaüdü gözləmir, onun təqaüd imkanları kifayət qədər genişlənib. Dövlətdən aldığı təqaüddən savayı, universitetlərdən, hətta ali məktəblərin qurduğu əməkdaşlıqlar sayəsində özəl müəssisələrdən belə təqaüd alanlar var.**



Cabir ÖMƏR

### Tələbə ayda 550 manat təqaüd ala bilər

Mütəmadi artan dövlət təqaüdlərini tələbələrin böyük hissəsi alır. Bu ilin iyul ayında ali təhsilin bütün səviyyələri üzrə, eləcə də peşə, orta ixtisas təhsili alan tələbələrin təqaüdləri artırılıb. Üstəlik, hər il 102 nəfərə Prezident təqaüdü də verilir və standart tələbə təqaüdləri kimi, Prezident təqaüdünün də məbləği artırılaraq 275 manatdan 350 manata qaldırılıb. Beləliklə, akademik göstəriciləri yüksək olan tələbə, məsələn, "əlaçı" təqaüdü ilə yanaşı, Prezident təqaüdü də alarsa, ay ərzində təxminən 550 manat pul ala bilər.

Məsələn, Prezident təqaüdünə layiq görülənlərdən biri Cabir Ömər Azərbaycan Dövlət İqtisad Universitetinə (UNEC) qəbul olunub: "Prezident təqaüdü, Əlaçı təqaüdü və UNEC-in daxili təqaüdünü əldə edəcəyəm. Bu təqaüd bir motivasiya mənbəyi rolu oynayır mənim üçün. Təqaüdü şəxsi ehtiyaclarım üçün xərcləyəcəyəm. Gündəlik xərclərimi - nəqliyyat, geyim və digər vacib ehtiyaclarımı onunla ödəyəcəyəm. Bu, həm də ailəmin üzərindəki maddi yükü azaltmağa kömək edəcək".

### UNEC-də bəzi tələbələrin təqaüdləri 1000 manata qədər çatır

Azərbaycan Dövlət İqtisad Universitetinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnarə Məmmədova "Azərbaycan müəllimi"nin sorğusuna cavab olaraq bildirib ki, 600-dən yuxarı bal toplayaraq qəbul olunanlar və UNEC-i seçən respublika və beynəlxalq fənn olimpiadalarının qalibləri universitetin xüsusi təqaüdünü alırlar. Odur ki, həmin tələbələrin təqaüdləri 1000 manata qədər çatır: "I kursun I semestrində 100 manat UNEC-in xüsusi təqaüdüdür. Bir semestr boyu UNEC-in tələbəsi olan Prezident təqaüdçüləri 650 manat alacaqlar. Yuxarı kurslarda "PASHA holding"in "Əlaçı" təqaüdünü alanlar var, bu təqaüd 300 manata yaxındır. Bundan əlavə, bütün kurslar üzrə hər semestr "Top-15" təqaüdü təyin edilir. Semestrin nəticələrinə görə hər kurs üzrə ən yüksək bal toplayan 15 tələbəmizə UNEC-in "Əlaçı" təqaüdü də təyin edilir. Bu təqaüdün məbləği də 200 manatdır".

### AzMİU-nun tələbələri şirkətlərdən də təqaüd alırlar

Azərbaycan Memarlıq və İnşaat Universitetində də dövlət təqaüdündən başqa imkanlar da var. Məsələn, tələbə SABAH qruplarında təhsil alırsa, buna görə də əlavə 70 manat alır. Sözügedən ali təhsil müəssisəsinin mətbuat xidmətinin rəhbəri Nicat Abdullayev bildirib ki, 500-600-dən yuxarı bal toplayan tələbələr motivasiya təqaüdü də alır. 500-dən yuxarı balla universitetə qəbul olunanlara 150 manat, 600-dən yuxarı balla AzMİU-nu seçənlərə 250 manat təqaüd verilir.

Universitetlə istehsalat əməkdaşlığı çərçivəsində tələbələrə ayrı-ayrı şirkətlər də təqaüd verirlər. Belə ki, orta müvəffəqiyyət göstəricisi yüksək olan tələbələr istehsalat müəssisələrindən adlı təqaüd alırlar.

Bu il Azərbaycan Memarlıq və İnşaat Universitetinə 648.6 balla qəbul olunan Nuranə İbrahimova ilk tədris ilində ən yüksək təqaüd alan tələbədir.

### ADPU-da təqaüd imkanları: bu ildən "UĞUR" təqaüdü də verilir

"250 manat Heydər Əliyev adına təqaüd alan tələbəmiz 200 AZN əlaçılığa, SABAH-da oxuyursa, 50 AZN də buna görə ala bilər. Qəbul olanda "Gələcəyin müəllimi"nə düşərsə, ona görə də 100 manat ala bilər. Nəzəri olaraq, ADPU-ya qəbul olan tələbənin təqaüdü 800-1000-ə qədər çıxa bilər".

Bunu ADPU-nun İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin müdiri Taleh Mirzəyev "Azərbaycan müəllimi"nə Azərbaycan Dövlət Pedaqoji Universitetində təqaüd imkanlarından danışarkən deyib. Onun sözlərinə görə, dövlət sifarişi və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, əyani təhsil alan tələbələrə təqaüd onların ümumi orta müvəffəqiyyət göstəricilərinə (ÜOMG) görə təyin edilir. Bundan əlavə, dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı 2019-2020-ci tədris ilindən etibarən artırılmağa başlanılıb. Hazırda ADPU-da bu nisbət 70 faizə qədərdir: "İmtahan sessiyasından sonra fakültələr-



Anar YUSİFOV

də tələbələrin həmin semestr üçün ÜOMG-nə əsasən (ən yüksək nəticə göstərənlər) təqaüd alanların siyahısı müəyyən olunur. Əlavə olaraq, universitetdə elm və təhsil nazirinin əmrinə əsasən, 2017-ci ildən SABAH qruplarının tələbələrinə məqsədli təqaüd təyin olunur. 2014-cü ildən qəbul imtahanlarında 500-dən çox bal toplayan və ixtisas seçimində birinci və ya ikinci yerdə müəllimlik ixtisasını qeyd edənlər Elm və Təhsil Nazirliyinin aylıq 100 manat məbləğində "Gələcəyin müəllimi" təqaüdünü almaq hüququ qazanırlar".

ADPU-da 2025-2026-cı tədris ilindən etibarən "UĞUR" xüsusi təqaüd proqramı elan edilib. Proqram çərçivəsində 600 bal və daha yüksək nəticə ilə Azərbaycan Dövlət Pedaqoji Universitetini seçən ilk 10 tələbə ilk tədris ilinin birinci semestri ərzində aylıq 200 AZN dəyərində xüsusi "UĞUR" təqaüdü alacaq.

600 bal və daha yüksək nəticə ilə universitetə qəbul olunan ilk 10 tələbəyə 1 il ərzində "Firidun bəy Köçərli" təqaüdü verilir. Təqaüdün məbləği ayda 125 manatdır.

ADPU tələbələri Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Komitəsinin təqaüdünü də alırlar. Belə ki, hər semestr ADPU ETHİK-in üzvü olan ictimai fəal və akademik göstəriciləri yüksək olan 14 tələbəyə 300 manat məbləğində birdəfəlik təqaüd verilir. 2025-2026-cı tədris ilindən etibarən ADPU ETHİK tərəfindən hər il bakalavriat səviyyəsi üzrə ixtisas seçimində birinci yerdə ADPU-ya ən yüksək nəticə ilə qəbul olunan tələbəyə 400 AZN, ADPU-nun filialları və magistratura səviyyəsinə ən yüksək balla qəbul olunan tələbəyə isə 500 AZN məbləğində birdəfəlik xüsusi təqaüd verilir.

Qeyd edək ki, təqaüdün təyinində ən yüksək balla qəbul olunmaqla yanaşı, ixtisası birinci yerdə yazmaq tələbi yalnız ADPU-nun bakalavriat səviyyəsinə aiddir, magistratura səviyyəsi və filiallara, sadəcə ən yüksək balla qəbul olunmaq bu təqaüdü almağa əsas verir.

ADPU-nun Elmi Şurasının müvafiq qərarlarına əsasən, hər il ADPU-ya ən yüksək balla qəbul olunan və imtahan sessiyaları dövründə ÜOMG-si yüksək olan tələbələrə isə adlı təqaüdlər təyin olunur. Hazırda 14 belə təqaüd var.

Pedaqoji Universitetdə 250 manat məbləğində Heydər Əliyev adına təqaüd, 204 manat təşkil edən Nizami Gəncəvi adına, Abbasqulu ağa Bakıxanov adına, Qafur Rəşad Mirzəzadə adına, Üzeyir Hacıbəyli adına, Akademik Həsən Abdullayev adına, Akademik Zahid Xəlilov adına, Akademik Yusif Məmmədəliyev adına, Akademik Mehdi Mehdizadə adına, Bəxtiyar Vahabzadə adına, Lütfi Zadə adına, Xəlil Rza Ulutürk adına təqaüdlər və 125 manat dəyərində Firidun bəy Köçərli adına təqaüdlər var. Həmin təqaüdlər tələbələr üçün, sadəcə sosial rifahlarına təsir edən amil deyil, həm də rəqabət mühiti yaradır.

Anar Yusifov üçün isə həm də stimul olub. O, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin "Türk dili və ədəbiyyatı" ixtisasının III kurs tələbəsidir. Yüksək təqaüd alan tələbələrdəndir: "Heydər Əliyev adına təqaüd elan olunanda ixtisasımızda təqaüd üçün 1 yer vardı. Həmin yerə də maksimum ortalama imtahan balları tələbi qoyulub. Mən də imtahanlara daha ciddi hazırlaşdım, çox səy göstərdim və buna nail oldum. Heydər Əliyev adına təqaüdə düşdüyümü bildikdə çox sevindim. Çünki məbləğdən asılı olmadan təqaüd bir tələbə üçün çox önəmlidir. Mənim üçün təqaüd ailə vəziyyətimlə bağlı olaraq çox əhəmiyyətlidir".

### Bəs filiallarda da həmin təqaüdlər qüvvədədirmi?

Taleh Mirzəyevin sözlərinə görə, ADPU-nun yalnız 2 filialında - Quba və Şamaxı filiallarında adlı təqaüdlər var. Məsələn, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialında Heydər Əliyev adına təqaüd III, IV va V kurslarda ÜOMG-si ən yüksək olan tələbələrə verilir və məbləği 100 manatdır.

Dəyəri 50 manat olan Nadir İbrahimov adına təqaüd "Riyaziyyat müəllimliyi" və "Riyaziyyat və informatika müəllimliyi" ixtisaslan üzrə semestr ərzində ÜOMG-si ən yüksək olan tələbəyə, Səməd Vurğun adına təqaüd "Azərbaycan dili və ədəbiyyat müəllimliyi" və "Xarici dil müəllimliyi" ixtisasları üzrə semestr ərzində ÜOMG-si ən yüksək olan tələbəyə, Abbasqulu ağa Bakıxanov adına təqaüd "Məktəbəqədər təhsil ixtisası üzrə semestr ərzində Diplom ortalama müvəffəqiyyət göstəricisi (DOMG) ən yüksək olan tələbəyə, Fətəlixan adına təqaüd "Tarix müəllimliyi", "Coğrafiya müəllimliyi", "Tarix və coğrafiya müəllimliyi" və "Sosial iş" ixtisasları üzrə semestr ərzində ÜOMG-si ən yüksək olan tələbələrə, Badisəba Köçərli adına təqaüd "İbtidai sinif müəllimliyi" ixtisası üzrə DOMG-si ən yüksək olan tələbəyə, Kübrə Fərəcova adına təqaüd "Təhsildə sosial-psixoloji xidmət" ixtisası üzrə DOMG-si ən yüksək olan tələbəyə verilir.

### Lənkəranda bakalavriat səviyyəsi üzrə 420, magistratura səviyyəsi üzrə 480 manat

Lənkəran Dövlət Universitetində 1880 tələbəyə dövlət sifarişli yer əsasında təqaüd təyin edilib. Həmin tələbələrdən 30-u əlaçı təqaüdü alır. Bakalavriat səviyyəsi üzrə adi təqaüd 110 manat, həvəsləndirici təqaüd 160 manat, əlaçı təqaüdü 200 manat, magistratura səviyyəsi üzrə adi təqaüd 120 manat, həvəsləndirici təqaüd 180 manat, əlaçı təqaüdü 240 manatdır. Universitetdə ən yüksək təqaüd alan "Xarici dil müəllimliyi" (ingilis dili üzrə) ixtisasının III tədris ili tələbəsi Zeynəb Süleymanova olub və ona 330 manat ödənilib.

Universitetin mətbuat xidmətinin rəhbəri Esmira İsmayılova bildirib ki, Lənkəran Dövlət Universitetində də tələbələr bir neçə təqaüdü eyni vaxtda ala bilər: "Buna misal olaraq dövlət sifarişi hesabına ayrılmış təqaüdü, həm də valideyn himayəsindən məhrum olan tələbələrə ödənilən ikiqat təqaüdü göstərmək olar. Təqaüdlərin ən yüksək məbləği bakalavriat səviyyəsi üzrə 420, magistratura səviyyəsi üzrə 480 manat müəyyənləşdirilib. Həmçinin əcnəbi tələbələrin LDU-ya cəlb edilməsi üçün "universitet təqaüdü" adı altında bakalavriat səviyyəsi üzrə təhsil alan tələbələrə universitetin daxili büdcəsindən həvəsləndirici təqaüdalma forması miqdarında 160 manat məbləğində təqaüd ayrılır".

### MDU-da yüksək nəticə göstərən 20 tələbəyə birdəfəlik təqaüd

2024-2025-ci tədris ilinin yaz semestrinin imtahan sessiyasının nəticələrinə əsasən, dövlət təqaüdü almayan, lakin fakültələr üzrə ən yüksək nəticə göstərən 30 bakalavr və 5 magistr birdəfəlik 500 manat məbləğində "Rektorun fəxri təqaüdü"nü alacaqlar.

İctimaiyyətlə əlaqələr üzrə mütəxəssis Qurban Qurbanzadənin sözlərinə görə, təqaüd alan tələbələrin müəyyənləşdirilməsi zamanı onların imtahan sessiyası üzrə ümumi akademik nəticələri, təqaüd şərtlərinə uyğunluğu və dövlət təqaüdü almamaları əsas götürülür.

Hazırda Mingəçevir Dövlət Universitetində Elm və Təhsil Nazirliyinin təsis etdiyi "Gələcəyin müəllimi" təqaüdü də verilir.

Bu tədris ilində MDU-ya qəbul olunmuş 500-dən yuxarı ballı 20 tələbəyə birdəfəlik təqaüdlər verildi. 500-550 bal arası 600, 550-600 bal arası 800 və 600-700 bal arası olanlara 1000 manat məbləğində təqaüd nəzərdə tutulub.

Mingəçevir Dövlət Universitetinin 6 tələbəsi - Səadət Atakişiyeva, Arzu Ramazanova, Gülnarə Mirzəliyeva, Səbinə Şirinova, Tamara Həsənova və Aytac Babayeva Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının "Adlı təqaüd"nə layiq görülüb.

Bu il Mingəçevir Dövlət Universitetinə qəbul olunan Şəbnəm və Aysel birdəfəlik 1000 manat təqaüd alıb. Şəbnəm 638, Aysel 620 balla MDU-nu seçib. Həmçinin başlanğıc olaraq həvəsləndirici, daha sonra zərbəçi və ya əlaçı təqaüdü ala bilərlər. Onlar "Gələcəyin müəllimi" təqaüdü də alacaqlar.

Universitetin sözçüsü bildirib ki, gələcəkdə bu təqaüdlərin sayının artması ilə bağlı işlər gedir: "Son Elmi Şurada qəbul edilmiş qərara əsasən, mərhum iqtisadçı, professor Akif Musayevin adına təqaüd təsis edilib. Bundan əlavə, Türkiyədə yerləşən otellərdə təcrübə keçəcək turizm yönümlü ixtisaslarda təhsil alan tələbələrə də təqaüdün verilməsi, energetiklər təqaüdünün də təsis edilməsi nəzərdə tutulur.

Ümid edirik ki, ildən-ilə artan təqaüd imkanları tələbələrin təhsil, elm istiqamətində özlərini inkişaf etdirməsində faydalı olacaq.

**Ruhiyyə DAŞSALAHLI**

# "Niyə bir körpə uşaq əzasız dünyaya gəlib?"



## Azərbaycanlı gənc anatomiyanı asanlıqla öyrədən robot ixtira edib

Son illərdə gənclərimiz arasında elmi biliklərə, elmi-tədqiqatlara marağın artmasının şahidi oluruq. Şagirdlərimiz elmlə maraqlanır, axtarışlar aparır, nüfuzlu alimlərimizdən məsləhətlər alır və ölkə elminin gələcək təmsilçiləri olmaq yolunda ilk addımlarını atırlar.

Şagirdlərimizin elm yolunda bu cür titrək addımlarını dəstəkləmək isə təhsil sistemi qarşısında duran mühüm vəzifələrdən biridir. Məhz hərtərəfli dəstək sayəsində gənclərimizin dünya elm müsabiqələrində əldə etdiyi uğurlardan bəhs edə bilirik.

Belə istedadlı gənclərimizdən biri - Bakıdakı Namiq Həmzəyev adına 238 nömrəli tam orta məktəbin məzunu Gülarə Əli qızı Həsənovadır.

Gülarə Həsənova Çexiya Respublikasının paytaxtı Praqa şəhərində bu ölkənin Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Global Evidence Summit" (GES - Qlobal Sübut Zirvəsi) adlı qlobal sammitdə Azərbaycanı 73 ölkədən seçilən 1848 nəfər arasında tibb istiqaməti üzrə tapdığı genetik ideyası ilə təmsil edib.

Əlavə olaraq, tibb sahəsində genetik ideyası ilə yanaşı anatomiyanı bizlərə asanlıqla öyrədə bilən robot ixtira edib. Robot ideyasına görə 2021-ci ildə "Sabahın alimləri" Respublika müsabiqəsində bürünc medala layiq görülüb və fərqlənmə diplomu ilə təltif olunub.

G.Həsənova həmçinin robototexnika, kibertəhlükəsizlik sahələri üzrə elmi biliklərə, sertifikatlara sahibdir. Harvard, Oksford universitetləri tərəfindən keçirilən esse müsabiqələrindən də nailiyyətləri var.

Gənc istedad elmi axtarışları və hədəfləri barədə fikirlərini bizimlə bölüşür:

- Orta məktəbi bitirdikdən sonra genetik ideyamı xarici arenada daha da inkişaf və təkmilləşdirmək qərarına gəldim. Bu səbəblə hazırda elmi biliklərimi inkişaf etdirirəm və biotibbi mühəndislik ixtisasında təhsil almaq istəyirəm. Onu da qeyd edim ki, orta məktəbdə təhsil alarkən Azərbaycan Tibb Universiteti, Elm və Təhsil Nazirliyinin Fizika İnstitutu, Genetik Ehtiyatlar İnstitutu, Multikulturalizm Mərkəzi, bir neçə tibbi poliklinikada elmi-tədqiqatlar aparmış və professorlardan yüksək rəylər əldə etmişəm.

Həmçinin mexatronika və proqramlaşdırma, kibertəhlükəsizlik, insan anatomiyası və genlər kimi elmi sahələrlə məşğul olmuşam. Orta məktəbdə təhsil aldığım müddətcə isə Rauf Hacıyev adına 15 nömrəli musiqi məktəbindən kanon və fortepiano alətləri ixtisası üzrə məzun olmuşam. Vətənə, şəhidlərimizə həsr olunmuş bir neçə şeirin müəllifiyəm. İnsanların sağlam həyat yaşamasını istəyirəm və bu mövzuya həvəsimin nəticəsi olaraq müəllifi olduğum "Motivasiya bu günümüz, bu günümüz isə sabahımızdır" adlı kitabım özündə sağlam qidalanma, yuxu rejimi, depressiya, stres və onun sinir sistemi, həmçinin digər orqanlarda yaratdığı zərərlər, ruh yüksəkliyi yaradan hormonlar və onu aktivləşdirmə metodları, eyni zamanda motivasiyamızı yüksəldəcək mənəvi düşüncələri əks etdirir.

Qeyd edim ki, "Global Evidence Summit" (Qlobal Sübut Zirvəsi) ilk tədbirdən 6 il sonra II dəfə Çexiya baş nazirinin müavini, həmçinin səhiyyə naziri olan Vlastimil Valekin himayəsi altında keçirilmiş tibb sahəsində qlobal tərəfdaşlıqların təşviqinə olan bağlılığa dair elmi sübutların, dəlillərin nümayişi, təhsil, iqlim dəyişkənliyi və ətraf mühit, sosial müzakirələrə həsr olunmuş böyük elmi sammit idi.

Gülarədən onu elmi fəaliyyətə təşviq edən amillər barədə soruşuruq:

- Hələ VIII sinifdə oxuyarkən Azərbaycan dili müəllimimiz bizə tetra-ameliya (nadir hallarda rast gəlinən irsi xəstəlik) sindromundan əziyyət çəkən Nik Vuyçiç adlı oğlanın həyat hekayəsini danışırdı. Nick dünyaya gəldiyi andan əzaları olmayan azyaşlı, lakin həyat eşqini, əzmini itirmədən müvəffəqiyyətlər qazanmış gəncə çevrilir. Lakin xarici görkəminə görə dəfələrlə ətrafdakıların tənqidlərinə məruz qalaraq özünü bədbin hiss edərdi. Nikin başına gələnlər məni kədərləndirmişdi. O zamanlar "Niyə bir körpə uşaq əzasız dünyaya gəlib? Görəsən, buna səbəb nələr olub?" - deyə öz-özümə suallar verərdim. Zoologiya bölməsindəki heyvan orqanizmlərinin iş prinsiplərini oxuyan zaman genetika ilə konfiqurasiya edib yeni bir ideya fikirləşdim. O qədər özümü sevincli hiss edirdim ki, çünki bu ideya genetik xəstəliklərin bəzilərini ana bətnində, yəni embrion dövrdə sağalda bilər. İdeyanın məğzi ondan ibarətdir ki, insan orqanizmindəki genlərdə müəyyən problemlər meydana gələ bilər ki, çox vaxt DNT bu problemləri deşifrələyir.

Bəzi genlər üçün maddələrdən istifadə edərək həmin deşifrələnməni tapa, eyni zamanda da genetik problemi həll edə bilərik. GES təşkilatçısı Milovlas Klugar, həmçinin digər xarici univerisitetlərin professorları ilə ideyamın məxfiliyini qorumaq şərti ilə müzakirələrim yüksək qiymətləndirilib. Əlavə olaraq ideyama Genetika Ehtiyatlar İnstitutunun İcraçı direktoru Mehrac Abbasov, həmçinin ABŞ-nin Dyuk Universitetinin professoru da müsibət rəy bildirib, bu ideyanın genetika sahəsində təkmil işlər görəcəyini vurğulayıblar. Qarşıda növbəti yarışmalar, böyük elmi konfranslar var. Bu tədbirlərdə iştirak etməyi hədəfləmişəm.

**Oruc MUSTAFAYEV**

# “Elm və təhsilə birgə baxış”



## Layihə çərçivəsində Türkiyə-Azərbaycan Universitetində görüş keçirilib

Elm və Təhsil Nazirliyinin “Elm və təhsilə birgə baxış” layihəsi çərçivəsində nazirliyin Elm, ali və peşə təhsili şöbəsinin rəhbərliyi və əməkdaşlarının, həmçinin Türkiyə-Azərbaycan Universiteti (TAU) və Azərbaycan Texniki Universitetinin rəhbər heyətinin, professor-müəllim və inzibati heyətinin iştirakı ilə görüş keçirilib.

Görüşün əsas məqsədi iki illik fəaliyyəti dövründə Türkiyə-Azərbaycan Universitetinin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, qarşıya çıxan çətinliklərin həlli və ali təhsildə prioritet sahələrin müzakirəsi olub.

Görüş zamanı ali təhsildə idarəetmənin səmərəliliyinin artırılması, təhsil proqramlarının müasir tələblərə uyğunlaşdırılması, akademik və inzibati proseslərin çevikliyinin təmin olunması, ikili diplom proqramlarının təşkili, eləcə də qanunvericilik bazasının təkmilləşdirilməsi ilə bağlı fikir və təkliflər səsləndirilib.

Türkiyə-Azərbaycan Universitetinin prorektoru Mehmet Şimşir görüşün təşkilinə görə Elm və Təhsil Nazirliyinə təşəkkür edib, bu müzakirələrin ali təhsil müəssisələrinin inkişafında mühüm rol oynadığını vurğulayıb.

# İctimai təşəbbüslərin dəstəklənməsi üzrə qrant müsabiqəsi




## elan edilir

Elm və Təhsil Nazirliyi “Elm və təhsil sahəsində ictimai təşəbbüslərin dəstəklənməsi” qrant müsabiqəsi elan edir. Qrant müsabiqəsi Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış və təhsil sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları üçün nəzərdə tutulur.

Müsabiqəyə təqdim olunacaq layihə təkliflərinin qəbulu 27 oktyabr 2025-ci il tarixinədək musabige@edu.gov.az elektron poçtu vasitəsilə aparılacaq.

# “İnternetdən təhlükəsiz istifadə bacarıqları”




## Məktəblərdə yeni layihəyə start verilir

Elm və Təhsil Nazirliyinin dəstəyi, AZCON Holding şirkətlərindən olan “Aztelekom” MMC və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin (MÜTDA) təşkilatçılığı ilə “İnternetdən təhlükəsiz istifadə bacarıqları” layihəsinə start verilir.

Layihənin məqsədi şagird və müəllimlər arasında internetdən düzgün istifadə vərdişlərinin formalaşdırılması, eləcə də rəqəmsal savadlılığın artırılmasıdır.

Layihə çərçivəsində “Aztelekom”un mütəxəssisləri tərəfindən ölkənin müxtəlif bölgələrində yerləşən məktəblərdə şagird və müəllim heyəti üçün təlimlər keçiriləcək. Təlimlər zamanı iştirakçılara şəxsi məlumatların qorunması, sosial şəbəkələrdə davranış qaydaları, onlayn təhlükələrdən qorunma üsulları və məsuliyyətli internet istifadəsi barədə məlumatlar veriləcək.

Təlim zamanı iştirakçılarla real situasiyalar əsasında müzakirələr aparılacaq, praktik nümunələr üzərində işləniləcək. Maarifləndirici sessiyalar müasir tədris metodlarına uyğun olaraq interaktiv şəkildə təşkil olunacaq.

# “MÜSTƏQİL TÜRK DÖVLƏTLƏRİNDƏ DİL SİYASƏTİ”

Bu yaxınlarda Qarabağ Universitetinin Elm şöbəsinin müdiri filologiya elmləri doktoru, dosent Elçin İbrahimovun “Müstəqil türk dövlətlərində dil siyasəti” adlı monoqrafiyası nəşr olunub. Müəllifin sosiolinqvistika sahəsində apardığı son elmi tədqiqatların mühüm yekunu olan bu əsər dilçiliyin yeni tədqiqat sahələrindən biri olan dilplanlaşdırma məsələlərinə həsr edilmişdir. Sözügedən monoqrafiyada, ilk növbədə, son otuz ildə müstəqillik qazanmış türk dövlətlərində aparılan dil siyasəti məsələsi geniş təhlil edilir, bu istiqamətdə irəli çıxan əsas problemlər müəyyən edilərək onların həlli yolları təklif olunur.

Tədqiqat əsərində elmi araşdırmanın spesifikasına uyğun olaraq dil siyasəti həm diaxron, həm də sinxron şəkildə nəzərdən keçirilir, Orxon-Yenisey abidələri dövründən üzü bəri Türk dünyasında bu sahədə həyata keçirilən siyasət təhlil, əldə olunan mühüm nailiyyətlər və yol verilən səhvlər müəyyən edilir.




## Monoqrafiya Qarabağ Universitetinin mühüm elmi nəticələrindəndir

Monoqrafiyada müasir müstəqil türk dövlətlərində yürüdülən dil siyasətinin ümumi fonunda Ulu Öndər Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyinin hər iki dönəmində ana dilinin saflığının qorunması, inkişafı istiqamətində həyata keçirilən bir sıra mühüm əməli tədbirlər diqqət mərkəzinə gətirilir. Qeyd olunur ki, Ümummilli Liderin siyasi iradəsi sayəsində 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasının 73-cü maddəsinə “Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir” müddəasının salınması mümkün olub, 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının 21-ci maddəsində dövlət dili kimi məhz Azərbaycan dili qeyd olunub, 18 iyun 2001-ci il tarixində “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi” ilə bağlı Fərmanın imzalanması ilə latın qrafikasına keçid problemi birdəfəlik öz həllini tapıb. Bu və bu kimi digər mühüm qərarlar Ümummilli Lideri uzaqgörən siyasi xadim kimi xarakterizə etməklə yanaşı, yuxarıda sadalananların dilçilər tərəfindən müasir türk dövlətlərində həyata keçirilən ən uğurlu ardıcıl dil siyasəti nümunəsi olaraq qiymətləndirilməsinə səbəb olub.

Kitabda həmçinin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Ulu Öndərin başladığı dil siyasətini layiqincə davam etdirdiyi vurğulanır, onun yürütdüyü dil siyasətinin türk dövlətlərinin daha sıx inteqrasiyasına geniş imkan yaratdığı bildirilir.

Müəllif son dövrlərdə türk dövlətlərinin birliyində önəmli hadisə olan vahid əlifba məsələsinə də toxunur, bunun türk dillərinin bir-birinə inteqrasiyası üçün əhəmiyyətli addım olduğunu göstərir. Alim vahid türk əlifbasının müstəqilliyi olmayan türk xalqlarının ana dilinin bilinqvizm şəraitində dominant dilin siyasi gücü qarşısında məğlub olmasına mane olan mühüm addım kimi dəyərləndirir və milli dillərin yaşaması üçün avtonom dil statusu qazanmasının vacibliyini gündəmə gətirir.

Kitaba görkəmli türkoloq, Azad Berlin Universitetinin professoru Barbara Kellner-Heinkele “Ön söz” yazıb. Vaxtı ilə Yakob M.Landau ilə birgə keçmiş sovet respublikalarında dil siyasəti mövzusunda iki mühüm kitabın müəllifi olmuş bu alim haqqında danışdığımız monoqrafiyanı yüksək qiymətləndirir, əsərin strukturunda möhkəm məntiq dayandığını bildirir, keçmişdə və bu gün türk dillərində danışan toplumlarda dil siyasətinin xronoloji metodla geosiyasi aspektdə araşdırıldığını nəzərə çatdırır və belə bir səmimi etiraf edir: “Elçin İbrahimovun tədqiqat əsərinin əhatə dairəsi bizim kitablarımızdan xeyli genişdir”.

Monoqrafiyanın mündəricatını nəzərdən keçirdikdə görürük ki, giriş, dörd fəsil, nəticə və kitabiyyatdan ibarətdir.

Tədqiqat işinin “Dil siyasəti və onun formalaşma yolları” adlı ilk fəslində əvvəlcə oxucuların böyük əksəriyyətinə o qədər də tanış olmayan “dil siyasəti” və “dilplanlaşdırma” anlayışları haqqında məlumat verilir, daha sonra bu siyasi fəaliyyəti şərtləndirən əsas faktorlar nəzərə çatdırılır. Xüsusilə də “dil-kimlik” məsələsinə diqqət yetirilir. Dilplanlaşdırmanın məqsədlərindən, mərhələ və istiqamətlərindən danışan müəllif dil siyasətinin növlərini sadalayır, dil davranışları və dil hüquqları barədə oxucuda geniş təsəvvür yaradır. Əsərdə dil situasiyası, siyasi hakimiyyət və rəsmi ideologiya, etnik vəziyyət, mədəni ortam və maddi durum dil siyasətini formalaşdıran əsas faktorlar kimi öyrənilir.

E.İbrahimov haqlı olaraq bildirir ki, dil və cəmiyyət əlaqələrinin əsasında dil birliyi dayanır, yəni konkret cəmiyyətdə hamının eyni dildə danışması, həmin dilin hər kəs tərəfindən aydın anlaşılması, cəmiyyət üzvlərinin bütün sferalarda yazışmaların məhz bu dildə aparması hər hansı bir dili konkret cəmiyyətin əsas ünsiyyət vasitəsinə çevirir. Hansısa bir tarixi səbəblərdən xalqın parçalanması, fərqli siyasi subyektlərin tərkibinə daxil olub ayrılması, imperiyaların təsiri altına düşməsi kimi siyasi hadisələr isə dilə təsirsiz ötüşmür, onun təbii inkişafının qarşısını alır.

Bu fəsildə çoxlarının qarışdırdığı yerli dil, regional dil, linqva franka (ortaq dil), dünya dili, ana dili, milli dil, rəsmi dil, ikinci dil kimi anlayışlar arasındakı fərqlər, “millətdən dövlətə” və “dövlətdən millətə” iki fərqli dil siyasəti modeli nümunələr gətirilməklə elmi şəkildə izah edilir.

“Türk dövlətlərində və türk toplumlarında dil siyasəti (tarixi aspekt)” adlı ikinci fəsildə 1300 illik yazı təcrübəsinə malik türk dilinin ünsiyyət vasitəsi kimi istifadə olunduğu türk dövlət və cəmiyyətlərində dil siyasəti - Osmanlı imperiyasında, Səfəvilər dövlətində türk dilinin inkişafı və dövlət dili kimi möhkəmlənməsi sahəsində görülən mühüm işlər, Çar Rusiyasının türk xalqlarının dili ilə bağlı həyata keçirdiyi siyasət, Azərbaycan Xalq Cümhuriyyətində, Sovet İttifaqının tərkibində olan türk respublikalarında, İran və Çində türk dillləri ilə bağlı siyasət araşdırma obyektidir.

Bu fəsildə “lisani-türki”nin Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən dövlət dili kimi qəbul edilməsi (1919), dövlətin türk dilinin bütün sahələrdə tətbiqini dəstəkləməsi və ərəb qrafikalı əlifbadan latın qrafikasına keçidin türk toplumlarında ilk dəfə ali səviyyədə qızğın müzakirə olunması cəmi iyirmi üç ay yaşamış müstəqil dövlətin ölkəmizdə gələcək dil siyasətinə təsir göstərən mühüm siyasi addımları kimi dəyərləndirilir.

“Müstəqil türk respublikalarında dil siyasəti (müasir dövr)” adlı fəsildə Türkiyə Cümhuriyyəti, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan respublikalarında türk dillərinin dövlət dili kimi möhkəmlənməsi və inkişafı istiqamətində atılan addımlar nəzərdən keçirilir və bu ölkələrdə ana dilinin tətbiqi ilə bağlı qəbul olunan mühüm qərarlar, həyata keçirilən dövlət proqramları dil siyasəti nöqteyi-nəzərindən təhlil edilir.

Bu fəsildə ayrı-ayrı müstəqil türk dövlətlərində həyata keçirilən dil siyasəti dövlət səviyyəsində qəbul edilmiş mühüm qərarlar əsasında müqayisəli şəkildə nəzərdən keçirilir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”, 23 may 2012-ci il tarixli “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında” və 17 iyul 2018-ci il tarixli “Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” sərəncamlarının ölkəmizdə son iyirmi ildə ana dilinə dövlət qayğısının bariz göstəriciləri olduğu vurğulanır.

Bu fəsildə müasir türk dövlətləri arasında ortaq ünsiyyət dili məsələsinə də toxunulur, qəbul olunmuş vahid türk əlifbasının türk xalqları arasında ortaq yazı dilinin möhkəm özülü və ortaq türk ədəbi dili üçün ilk mühüm addım olduğu qənaətinə gəlinir.

“Müasir türk toplumlarında dil siyasəti” adlı fəsildə isə Rusiya Federasiyasında, Çin Xalq Respublikasında, İran İslam Respublikasında, Moldova, Bolqarıstan, Gürcüstan respublikalarında yaşayan türk xalqlarının dilləri ilə bağlı həyata keçirilən siyasət tədqiqat obyektinə çevrilir. Alim həyəcan təbili çalaraq karaim, çulım, tofa dilləri kimi bir çox türk dillərinin də yaxın gələcəkdə yox olma təhlükəsi ilə üz-üzə qaldığını bildirir.

Bu fəsildə araşdırmanın mərkəzində duran mühüm elmi məsələlərdən biri də türkdilli əhalinin kompakt yaşadığı və milli azlıq kimi qiymətləndirildiyi dövlətlərdə türk dillərinə qarşı aparılan dil siyasətidir. Bu baxımdan hazırda Rusiya, Çin, İran, Moldova, Bolqarıstan və Gürcüstanda yaşayan türk xalqlarının ana dillərinin müasir vəziyyəti haqqında məlumat verilməklə yanaşı, onların mühafizəsi və inkişaf etdirilməsi sahəsində tövsiyələr də verilir.

Monoqrafiyaya təhlükədə olan türk dillərinin vəziyyətini əks etdirən cədvəl də əlavə edilmişdir ki, burada həmin dillər dil daşıyıcılarının sayı, dildən istifadə vəziyyəti, dilin statusu, təhsil dili, yazı dili olması nəzərə alınmaqla həmin dilin təhlükə dərəcəsi müəyyən edilir.

Nəzərə alsaq ki, Türk dünyasına inteqrasiya Azərbaycan Respublikasının müasir xarici siyasətində xüsusi əhəmiyyət kəsb edir, ölkə rəhbərliyi də türk dövlətləri ilə əlaqələrin möhkəmləndirilməsini və mənəvi ortaq dəyərlər vasitəsilə bu inteqrasiyanı təmin etməyi strateji hədəf kimi müəyyənləşdirir o zaman bu elmi tədqiqat işinin aktuallığını daha aydın təsəvvür etmək olar.

İlk Türkoloji Qurultayın (26 fevral-6 mart 1926-cı il) 100 illik yubileyinə hazırlıq işlərinin aparıldığı ərəfədə çap olunan bu monoqrafiya həmin mühüm elmi hadisədən ötən müddət ərzində türk dillərinin qorunması, inkişafı və bir-birinə inteqrasiyası istiqamətində atılan mühüm addımların bir hesabatı olub, bu sahədə gələcək fəaliyyət üçün bir yol xəritəsi cızır: belə demək mümkünsə, keçiriləcək yeni qurultayda qaldırılacaq mühüm problemlər barədə proqnoz verir.

Beləliklə, Qarabağ Universitetinin Elmi Şurasının qərarı ilə çap olunan “Müstəqil türk dövlətlərində dil siyasəti” monoqrafiyası sözügedən ali təhsil müəssisəsinin mühüm elmi nəticələrindən biri kimi qiymətlənidirilə bilər.

**Əzizağa NƏCƏFZADƏ,**
*Qarabağ Universitetinin Filologiya kafedrasının müdiri, filologiya elmləri doktoru*

# Müəllimlərin peşəkar inkişaf imkanları

Azərbaycan Respublikasında müəllimlərin peşəkar inkişafının təmin edilməsi üçün atılan addımlardan biri onların əlavə təhsilinin təşkilidir. Müəllimlərin əlavə təhsili "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"na müvafiq olaraq təşkil edilir. Qaydaya əsasən, əlavə təhsil ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi, təkrar ali, orta ixtisas və texniki peşə təhsili, dərəcələrin yüksəldilməsi və yaşlıların təhsili istiqamətlərini əhatə edir. Məqalədə bu istiqamətlərdən biri olan ixtisasartırma təlimləri xüsusi olaraq diqqət mərkəzinə çəkiləcək və bu prosesin Azərbaycanda necə təşkil olunduğuna dair ətraflı məlumat veriləcəkdir.



II YAZI

### Müəllimlərin ixtisasartırma təhsilinin məqsəd və məzmunu

Qaydaya əsasən, ixtisasartırma təhsili əlavə təhsilin bir istiqaməti olmaqla, ali, orta ixtisas və peşə təhsili pillələrinin hər hansı birini bitirmiş və dövlət sənədi əldə etmiş kadrların fasiləsiz təhsilini təmin etmək üçün əlavə təhsil müəssisələri tərəfindən həyata keçirilən təhsil növüdür. Bu təhsil növünün əsas məqsədi təhsilverənlərin ixtisasları üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsi, daim yenilənən əmək bazarının tələblərinə uyğunlaşdırılması, onların peşəkarlıq səviyyələrinin artırılması və dünyagörüşlərinin inkişaf etdirilməsidir. Bu məqsədə nail olmaq üçün ixtisasartırma təhsili aşağıdakı üç modul üzrə əyani və distant formada təşkil edilir:

1. Peşə fəaliyyətinin ümumi əsasları üzrə təlim;
2. İxtisas sahələri üzrə təlim;
3. İnnovasiyalar üzrə təlim.

Müəllimlər 1-ci modulda ümumi pedaqoji-psixoloji biliklər, bacarıqlar və müasir düşüncə tərzi, 2-ci modulda ixtisaslar üzrə bilik, bacarıq və müasir təlim strategiyaları, 3-cü modulda isə ümumi mədəni səviyyəni və yenilikləri əks etdirən bilik, bacarıq və vərdişlərə yiyələnirlər. İnnovativ nəzəriyyələr, üsullar, təcrübələr və texnologiyalarla bağlı bilik və bacarıqların formalaşdırılmasını nəzərdə tutan 3-cü modul üzrə təlim proqramları müəllimlərin maraqlarını nəzərə almaqla hazırlanır. 1-ci və 2-ci modul üzrə proqramların siyahısı isə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilir.

## Ölkəmizdə müəllimlərin peşəkar inkişafı necə təşkil edilir?

### İxtisasartırma təhsili yalnız müəllimlər üçün nəzərdə tutulubmu?

İxtisasartırma təhsili müəllimlərlə yanaşı təhsil müəssisələrinin digər pedaqoji kadrları və müəssisə rəhbərləri üçün də nəzərdə tutulur. Pedaqoji kadrlar və təhsil müəssisəsi rəhbərləri bir ixtisasartırma dövründə hər modul üzrə 60 saatlıq (2 həftəlik) və ya 30 saatlıq (1 həftəlik) təlimlərdə iştirak etməlidirlər. Hər modul üzrə müxtəlif təlim proqramları təklif edilir və pedaqoji kadrlar, eləcə də müəssisə rəhbərləri öz seçimləri ilə bir və ya bir neçə təlim proqramında iştirak edə bilirlər. Təlim proqramını uğurla bitirən pedaqoji kadrlar və rəhbərlər təlimin sonunda təhsil krediti əldə edirlər. Keçilən hər təlimin 6 saatı 1 təhsil kreditinə bərabər hesab edilir. Yəni, 30 saatlıq təlim proqramı keçmiş müdavimlər 5 təhsil krediti əldə etmiş olurlar.

Müdavimlər ixtisasartırma təhsili ilə bağlı proqramı mənimsədikdən sonra sertifikat əldə edirlər. Həmin vahid formalı sertifikatın surəti və müdavimin topladığı kreditlər onun şəxsi işinə əlavə olunur və gələcəkdə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi zamanı nəzərə alınır.

### Təhsilverənlərin peşəkar inkişafı daha hansı vasitələrlə həyata keçirilir?

Təhsilverənlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün atılan addımlardan biri də müəllimlərin sertifikatlaşdırılması prosesidir. İlk dəfə 2022-ci ildə ibtidai sinif müəllimlərinin cəlb olunması ilə təşkil edilən sertifikatlaşdırma prosesinin əsas məqsədi müəllimlərin peşəkarlıq səviyyələrinin və peşə yararlılıqlarının yoxlanılması, eləcə də onların vəzifə maaşlarına artımlar edərək stimullaşdırılmasını təmin etməkdir. 2026-cı ilə qədər 135 min müəllimin cəlb olunması planlaşdırılan bu prosesdə iştirak etməklə müəllimlər sertifikatlaşdırmanın tələblərinə uyğun olaraq öz üzərlərində işləyir, bilik və bacarıqlarını təkmilləşdirməklə öz peşəkar inkişaflarına töhfə vermiş olurlar. Müəllimlərin öz təşəbbüsləri ilə yanaşı, onlara dəstək məqsədilə Azərbaycan Respublikası Təhsil İnstitutu (ARTİ) tərəfindən sınaq imtahanları təşkil edilir və müxtəlif faydalı resurslar hazırlanır.

Müəllimlərin peşəkar inkişafının təşkil edilməsi üçün atılan növbəti addım ARTİ tərəfindən həyata keçirilən "Müasir metodist" müsabiqəsidir. Müsabiqəyə müraciət etmək üçün tələblərdən biri müraciət edən müəllimlərin sertifikasiya balının 51 və ya 51-dən yuxarı olmasıdır. Müsabiqənin bütün mərhələlərini uğurla tamamlayan müəllimlər ümumi təhsil müəssisələrində metodist kimi fəaliyyət göstərəcək, müəllimlərlə metodik görüşlər təşkil edəcək və onların peşəkar bacarıqlarının inkişaf etdirilməsinə töhfə verəcəklər.

Müəllimlərin peşəkar inkişafının təşkili üçün həyata keçirilən tədbirlərdən biri də Məktəblərin İnkişaf Planlarının hazırlanmasıdır. TKTA-nın (Təhsildə Keyfiyyət Təminatı Agentliyi) ümumi təhsil müəssisələrində keçirdiyi monitorinqlərin nəticələrinə əsasən, metodik bacarıqlar və öyrədici mühitin qurulmasında zəif nəticə göstərən məktəblərdə təhsilin keyfiyyətinin artırılması məqsədilə Məktəblərin İnkişaf Planı hazırlanır. Bir neçə ili əhatə edən inkişaf planının icrası zamanı həmin məktəblərdə ARTİ-nin Metodik Dəstək və Peşəkar İnkişaf Mərkəzi tərəfindən metodik görüşlər təşkil edilir və müəllimlərin peşəkar bacarıqları inkişaf etdirilir. Müəllimlərlə birgə müzakirələr formasında keçirilən bu görüşlər müəllimlər arasında əməkdaşlığın inkişafına, eləcə də sağlam sinif mühitinin formalaşdırılmasına mühüm töhfə verir.

Bu tədbirlərlə yanaşı, müəllimlərin peşəkar inkişafını artırmaq üçün məktəblərdə dərsdinləmələr təşkil edilir. Dərsdinləmələr məktəbin fəaliyyət planına daxil olmaqla, məktəbin rəhbər heyəti tərəfindən müəllimlərə metodik dəstək məqsədilə həyata keçirilir. Dərsdinləmələrin məqsədinə uyğun olaraq müəllimlərə fərdi konstruktiv rəy təqdim edilir və onların təlim ehtiyacları müəyyənləşdirilir. Müəllimlər də həmkarlarının dərslərini dinləyə və dinləmənin nəticələrini birgə müzakirə edərək məktəbdə peşəkar əməkdaşlıq mühitinin inkişafına və həmkarlardan öyrənmə mexanizminin qurulmasına dəstək ola bilərlər.

### Nəticə

Beləliklə, müəllimlərin peşəkar inkişafı uzun və çoxşaxəli öyrənmə prosesidir. Bu prosesdə müəllimlər həm öz şəxsi təşəbbüsləri, həm də həmkarlarının, məktəb rəhbərliyinin və dövlətin dəstəyi ilə peşəkar inkişafa nail olurlar. Sevindirici haldır ki, ölkəmiz müəllimlərin peşəkar inkişafının təşkili sahəsində qabaqcıl dünya ölkələrindən geri qalmamağı, təhsil siyasətimiz isə bu prosesin səmərəliliyini artırmaq üçün ən müasir yanaşmaları tətbiq etməyi hədəfləyir.

Buna baxmayaraq, ölkəmizdə müəllimlərin peşəkar inkişafının təşkili ilə təhsil üzrə qabaqcıl dünya ölkələrinin təcrübələri arasında fərqlər özünü hələ də göstərməkdədir. Belə ki, məqalədə adıçəkilən ölkələrdə müəllimlərin tədqiqat bacarıqları onlara təlim-tədris prosesində ortaya çıxan problemləri aşkarlamağa və öz peşəkar inkişaf ehtiyaclarını müəyyənləşdirməyə imkan verir. Ölkəmizdə isə müəllimlərin peşəkar inkişaf ehtiyacları təhsil qurumları tərəfindən həyata keçirilən sertifikasiya, monitorinqlər, sorğular və digər vasitələrlə müəyyənləşdirilir. Müəllimlərin tədqiqat bacarıqlarının inkişaf etdirilməsi isə təhsilverənlərin peşəkar inkişaf gündəmində ən aktual mövzulardan biri kimi yer almaqdadır.

Təhsil üzrə qabaqcıl dünya ölkələrində müəllimlərin peşəkar inkişaf fəaliyyətləri daha çox onların fəaliyyət göstərdiyi məktəblərdə təşkil edilir və məktəb rəhbərliyinin bu sahədə dəstəyi önəmli hesab olunur. Ölkəmizdə bu sahədə işlər aparılır və yaxın gələcəkdə bu fəaliyyətlərin metodistlər tərəfindən müəllimlərin fəaliyyət göstərdikləri məktəblərdə aparılması nəzərdə tutulur.

Bunları nəzərə alaraq qeyd etmək lazımdır ki, ölkəmizdə müəllimlərin peşəkar inkişafının səmərəli təşkil edilməsi üçün atılan addımlar bu sahədə qabaqcıl olan dünya ölkələrinin təcrübələrinə əsaslanır və mərhələli formada həyata keçirilməklə müəllimlərin peşəkarlığının yüksəldilməsinə və şagirdlərin keyfiyyətli təhsillə təmin edilməsinə xidmət edir.

**Gülşən NƏBİYEVA,**
*ARTİ-nin Təhsilverənlərin Peşəkar İnkişafı Mərkəzi, Əlavə təhsil üzrə innovasiyalar və tədqiqatlar şöbəsinin baş mütəxəssisi*




# Süni intellekt təhsildə

## Müəllim üçün köməkçi, tələbə üçün bələdçi

Müasir dünyanın mühüm nailiyyətlərindən biri olan süni intellekt (Sİ) artıq istehsal, biznes və xidmət sahələri ilə kifayətlənmir, elm və təhsildə də öz müsbət təsirini göstərir. Sİ təhsilverənlərin işini yüngülləşdirir, təhsilalanlara fərdi yanaşma təklif edir, beləliklə də, təhsil sistemi yeni bir mərhələyə və müstəviyə qədəm qoymuş olur.

### "Müəllimi əvəz etmir, gücləndirir" - qlobal baxış

"Təhsildə yeni çağırışlar" VI Beynəlxalq Forumunda OECD-nin Təhsil Departamentinin direktoru Andreas Şleyxer "Süni intellekt müəllimi əvəz edə bilməz, amma onu daha güclü edə bilər"- deyə fikir bildirib. Demək, texnologiya müəllimlərin yaradıcılıq və empatiya kimi insani keyfiyyətlərini ön plana çıxarmaq üçün vasitə rolunu oynayır.

### Azərbaycanın strateji hədəfləri: 2027-2030-cu illər üçün rəqəmsal yol xəritəsi

Süni intellektin inkişafını sürətləndirmək, elmi tədqiqatları təşviq etmək, ixtisaslı kadr potensialını gücləndirmək və təhsil sistemində rəqəmsal transformasiyanı təmin etmək yeni strateji sənəddə mühüm istiqamət kimi nəzərdə tutulub.

Bu istiqamətlər ölkəmizin qlobal trendlərə uyğun addımladığını, təhsil sistemini rəqəmsal transformasiya ilə zənginləşdirməyi hədəflədiyini göstərir.

### "AI Academy" - gələcəyin kadrları üçün start

Ölkəmizdə "Süni İntellekt Strategiyası" çərçivəsində "AI Academy" fəaliyyətə başlayıb və bu mərkəz vasitəsilə yüksəkixtisaslı kadrların hazırlanması başlıca prioritet kimi hədəflənir. Onun uğuru və effektivliyi gələcəkdə məzunların sayı, elmi məqalələr və innovasiya layihələrinin nəticələri ilə ölçüləcək.

### "Chatbot" və "robot tutor": sinif otağında ağıllı köməkçilər

Elm və Təhsil Nazirliyinin "Digital School" layihəsi çərçivəsində hazırlanmaqda olan AI əsaslı "Chatbot" dərsliklər üzrə şagirdlərin sualları cavablandıralacaq. Bu alətin tətbiqi, nəticə etibarilə, şagirdlərin müstəqil öyrənmə qabiliyyətini artıracaq, müəllimlərin yükünü isə azaldacaq.

Həmçinin, Azərbaycan dilində interaktiv "robot tutor" layihəsi üzərində iş gedir. Bu texnologiyanın əsas məqsədi şagirdlərə virtual müəllim dəstəyi göstərməkdir. Ölçülə bilən göstəricilər arasında şagirdlərin dərs motivasiyası, mövzunu anlama bacarığı və nəticələrindəki irəliləyişləri dayanır.

### Dünyanın aparıcı universitetlərində yeni yanaşma

Dünyanın ən nüfuzlu ali məktəblərində - Oksford, MIT, Harvard və Tokio universitetlərində süni intellektdən dərs planlarının hazırlanması və fərdiləşdirilməsi, təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi, elmi məqalələrin ilkin məzmununun tərtibi və s. üçün geniş istifadə edilir. Qlobal təhsil sistemində tamamilə yeni yanaşmaların əsası qoyulur və bu fakt onu göstərir ki, gələcəyin təhsili ənənəvi modellərdən çox-çox kənara çıxaraq hər bir tələbəyə fərdi yanaşma əsasında qurulacaq.

Bu proseslərin başlaması sadəcə texnologiyaların tətbiqi deyil, həm də təhsilin fəlsəfəsinin dəyişməsidir. Oksford və Harvard kimi universitetlərdə süni intellektdən istifadə təcrübəsi göstərir ki, ənənə ilə gələcək qarşıdurmada deyil, əməkdaşlıqda birləşir. Başqa sözlə, ənənəvi təhsil modelləri ilə rəqəmsal yanaşmalar ziddiyyət deyil, əməkdaşlıq şəklində birləşir.

### Milli ənənə və rəqəmsal transformasiya: Azərbaycan modeli

Azərbaycan təhsil sistemində də bu proses diqqətdən kənarda qalmır. "Təhsil haqqında" və "Elm haqqında" qanunlar, eləcə də 2025-2028-ci illər üçün nəzərdə tutulan "Süni İntellekt Strategiyası" ölkəmizdə bu istiqamətdə inkişafın hüquqi və konseptual bazasını təmin edir. Əsas məqsəd yalnız texnoloji yenilikləri tətbiq etmək deyil, onları milli təhsil ənənəri ilə uzlaşdırmaqdır. Çünki strategiyalar və qanunlar sadəcə sənəd deyil, gələcək nəsillərin təhsilinə yön verilən xəritədir.

### AI alətləri müəllim və tələbənin xidmətində

Təhsilalanın fərdi xüsusiyyətləri nəzərə alınmaqla, təlim prosesi xüsusi proqram əsasında təşkil edilə bilər. Bu tipli xüsusi proqramların hazırlanmasında və təlim prosesinin yenidən təşklilində süni intellekt həm müəllimlər, həm də tələbələr üçün "ağıllı köməkçi" rolunu oynaya bilər.

Sİ texnologiyaları təhsilalanların müxtəlif növ təqdimat və layihələr hazırlaması işini asanlaşdırır, onların öz zəif və ya inkişaf etməsi vacib tərəflərini aşkarlamasına, xarici dil(lər)də şifahi nitq bacarıqlarının formalaşdırmasına və s. kömək edir.

Sİ-nin köməyilə təhsilverənlər üçün dərs planlarının hazırlanması, testlərin tərtibi və qiymətləndirmə proseslərinin aparılması işi daha çevik və səmərəli olur. Məsələn, "ChatGPT" və "Bard" müəllimlərə mövzuya uyğun elektron tədris materalllarının, nümunələrin, izahların və s. hazırlanmasında, "Canva" AI vizual materialların dizaynında, "Quizlet" isə avtomatik testlərin yaradılmasında köməklik edir. Bununla yanaşı, "Kahoot" və "Classtime" kimi interaktiv platformalar təhsilalanların dərs prosesinə marağını artırır, analitik funksiyaların vasitəsilə öz zəif tərəflərini izlənməsinə şərait yaradır. STEM və proqramlaşdırma dərslərində isə "Geogebra", "Scratch" və "Tynker" kimi proqramlar riyaziyyat və kodlaşdırmanı daha əyani və əyləncəli hala gətirir.

Burada vacib məqam isə odur ki, süni intellekt müəllim və tələbənin yerini almır, əksinə onların fəaliyyətini daha da məhsuldar və səmərəli edir. Müəllim istiqamət verən, tələbə isə öyrənən olaraq qalır; texnologiya isə bu münasibəti daha çevik və effektiv hala gətirir.

### Elm aləmində süni intellekt: obyektivlik və sürət

Elmi-tədqiqat işlərində süni intellekt böyük həcmli məlumatların emalı, nəticələrin ilkin təhlili və qrafiklərin hazırlanmasında etibarlı alətə çevrilib. Ömürboyu təhsil və öyrənmə prosesində Sİ fərdlərə yeni bacarıqlar əldə etmək və əmək bazarına uyğunlaşmaq imkanı yaradır. Məsələn: bulud texnologiyaları, maşın öyrənməsi, təbii dil işlənməsi, kompüter görməsi və geogebra kimi tətbiqlər təhsili daha səmərəli, interaktiv və əlçatan edir. Yazı bacarıqlarının inkişafında "Grammarly" və "Quillbot" kimi Sİ alətləri tələbələrin esse və məqalələrdə öz dil və üslub səhvlərini düzəldərək daha keyfiyyətli və dəqiq işlər təqdim etməsinə kömək edir.

Beləliklə, elm daim dəqiqlik tələb edir, süni intellekt isə bu prosesdə sürət və obyektivliyi təmin edir. Lakin nəticələrin şərhi və onların dəyərə çevrilməsi hələ də insan zəkasının payına düşən ən mühüm vəzifədir.

### Etika məsələsi: "Ağıllı köməkçi" vicdanla işləməlidir

Bütün bu imkanlarla yanaşı, süni intellektdən istifadədə etik prinsiplərin qorunması xüsusi əhəmiyyət daşıyır. Süni intellekt sistemlərinin etibarlılığı, şəffaflığı və məlumatların məxfiliyinin təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətidir. Bu yanaşma "akademik dürüstlük" prinsipinin qorunması ilə birləşərək təhsil mühitində AI alətlərinin məsuliyyətli istifadəsini təmin edir.

Demək, tədris prosesi yalnız texnologiyaları tətbiq edən deyil, həm də onlardan düzgün istifadə mədəniyyətini formalaşdıran bir mühit olmalıdır. Süni intellektdən istifadənin mərkəzində hər zaman etik dəyərlər dayanmalıdır.

### İnklüziv təhsildə yeni imkanlar

Süni intellekt təhsildə inklüzivliyi də gücləndirir və "Təhsil haqqında" Qanunun 5-ci maddəsində əks olunmuş "bərabər hüquqluluq və inklüzivlik" prinsipinə xidmət edir. Məsələn: görmə və eşitmə imkanları məhdud olan tələbələr üçün nitqin tanınması, mətnin səsə çevrilməsi, avtomatik tərcümə texnologiyaları öyrənməni daha əlçatan edir və yeni üfüqlər açır. Bu yanaşma təhsildə bərabər imkanların yaradılmasına mühüm töhfədir. Nəticə etibarilə, inklüzivlik sadəcə sosial şüar deyil, süni intellektin dəstəyi ilə praktik həllə çevrilir.

### Dünyadan nümunələr: Finlandiya, Koreya, ABŞ

Finlandiya məktəblərində adaptiv platformalar təlimdən geridə qalan şagirdlərə fərdi dəstək, istedadlı şagirdlərə isə inkişaf imkanı yaradır. Cənubi Koreya təcrübəsində universitetlərdə plagiatın qarşısını almaq üçün süni intellekt sistemləri tətbiq edilir. ABŞ-də isə müəllimlər hazırladıqları dərs materiallarında süni intellektdən hansı hissədə istifadə edildiyini açıq-aşkar şəkildə göstərirlər. Sadalananlardan aydın olur ki, fərqli qitələrdə müxtəlif təhsil modelləri mövcud olsa da, süni intellektdən istifadə bütün ölkələri ortaq məqsəddə birləşdirir - daha ədalətli, daha şəffaf və daha keyfiyyətli təhsil.

### Nəticə: süni intellekt təhsilin keyfiyyətini yüksəldən praktik vasitədir

Beynəlxalq və yerli təcrübələrdən göründüyü kimi, AI müəllim və tələbələrin yerini almır. Onun missiyası öyrənmə prosesini daha maraqlı, məhsuldar və fərdi etməkdir.

Eyni zamanda, AI-nin təhsil prosesinə təsirini müxtəlif metriklərlə ölçmək mümkündür. Onların sırasına öyrənmə sürətinin artması, kurs bitirmə faizlərinin yüksəlməsi, müəllimlərin iş yükünün azalması, dil bacarıqlarının inkişafı, təhsilalanların özünüidarəetmə bacarığının güclənməsi, həmçinin, motivasiya və dərsə maraqlarının artması daxildir. Bu faktlar göstərir ki, süni intellekt yalnız yeni bir texnoloji trend deyil, həm də təhsilin keyfiyyətini yüksəldən praktik vasitədir.

**Simuzər QAFAROVA,**
*ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin metodisti*

# “Məqsədim ancaq qələbə çalmaq idi”



**MDB Oyunlarının medalçısı**

*Abşeron rayonu İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin yetirməsi Nicat Yeylaqalıyev Gəncə şəhərində keçirilən MDB Oyunlarında yunan-Roma güləşi üzrə yüksək nəticə göstərərək gümüş medal qazanıb.*

Nicat Yeylaqaliyev Abşeron rayonu Masazır kənd 2 nömrəli tam orta məktəbin 11-ci sinfində təhsil alır. İdmanla 5 yaşından məşğul olur: “Uşaq vaxtı əmim oğlu ilə bir yerdə idman edirdim. O, idmana gedirdi, mən də ona baxıb həvəslənmişdim. Abşeron rayonu İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbində, Masazır kənd 2 nömrəli tam orta məktəbin idman zalında yunan-Roma güləşi ilə məşğul olmuşam. Məşqçim Aydın Süleymanovdur və uğurlarımda əməyi keçdiyinə görə təşəkkürümü bildirirəm”.

Uğurları barədə məlumat verən idmançı 2023-cü ildə U15 Avropa çempionu, 2025-ci ildə Avropa üçüncüsü, MDB oyunlarının gümüş medalçısı olduğunu qeyd edir: “Məqsədim ancaq qələbə çalmaq idi. Son yarışımda görüşlərin hər biri, demək olar ki, gərgin mübarizə şəraitində keçdi. Rusiyalı və tacikistanlı idmançılara qalib gəldim, özbəkistanlı rəqibimə isə 4.0 məğlub olub 2-ci yerə layiq görüldüm”.

Nicatın gələcək hədəfi öncə dünya çempionu, sonra isə olimpiya çempionu olmaqdır. “Hədəflərimdən biri də ali təhsil almaqdır. Ali təhsilimi İdman Akademiyasında güləş üzrə alacağam”.

**Lamiyyə ƏLİMƏRDANOVA,**
*Abşeron-Xızı və Quba-Xaçmaz üzrə regional təmsilçi*

# BMU tələbəsinin növbəti uğuru



**“TurkicSkills 2025”in qalibi**

*Bakı Mühəndislik Universitetinin (BMU) “Kompüter elmləri” ixtisasının IV kurs tələbəsi Emil Hüseynov Qazaxıstan Respublikasının Aktau şəhərində keçirilən “TurkicSkills 2025-Peşə bacarıqları müsabiqəsi”ndə uğurla çıxış edərək türk ölkələrinin ən yaxşı gənc mütəxəssisləri sırasında yer alıb.*

Azərbaycanı müsabiqədə layiqincə təmsil edən BMU tələbəsi “Veb proqramlaşdırma” sahəsi üzrə III yeri qazanıb və bu nəticə ilə həm universitet, həm də ölkəmiz üçün mühüm nailiyyətə imza atıb.

“TurkicSkills” Türk Dövlətləri Təşkilatına üzv ölkələrin gənclərini bir araya gətirən, onların texniki və yaradıcılıq bacarıqlarını beynəlxalq standartlar səviyyəsində qiymətləndirən nüfuzlu yarışmadır. Mühəndislik, informasiya texnologiyaları, istehsal, robot texnikası və xidmət sahələrini əhatə edən yarışda iştirakçılar bir neçə gün ərzində real vaxtda proqramlaşdırma tapşırıqlarını yerinə yetirərək bilik, çeviklik və innovativ düşünmə qabiliyyətlərini sərgiləyiblər.

Qeyd edək ki, BMU tələbəsi Emil Hüseynov daha əvvəl də “WorldSkills Azerbaijan” müsabiqəsində “Veb proqramlaşdırma” üzrə birinci yerin qalibi olub və bir sıra regional, eləcə də beynəlxalq yarışlarda ölkəmizi təmsil etmək hüququ qazanıb.

# Etibarsız sayılır

**Gəncə Dövlət Universiteti** tərəfindən 2022-ci ildə Hacıyeva Nigar Şəmsəd qızına verilmiş C-156192 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4 nömrəli Respublika xüsusi internat məktəbini** 2009-cu ildə bitirmiş Əzizov Əziz Vaqif oğluna verilmiş D-002843 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 16 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Məmmədova (Heydərova) Jalə Razim qızına verilmiş E-250636 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Elm və Təhsil Nazirliyi** tərəfindən 2012-ci ildə təsdiqlənib Ağayeva Aidə Ağadadaş qızına verilmiş xarici ali təhsil üzrə kvalifikasiyanın tanınması haqqında T-005294 və İ-005947 qeydiyyat nömrəli şəhadətnamələr itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2000-ci ildə Məmmədov Sarxan Murad oğluna verilmiş A-032863 nömrəli bakalavr diplomu və diploma əlavə, 2008-ci ildə verilmiş MNB-017515 nömrəli magistr fərqlənmə diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** Qalınçaq kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Bədəlova Səliqə Kamran qızına verilmiş A-940278 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Poladtoğay kənd tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Süleymanov Xalidan Əli oğluna verilmiş A-445770 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Alpan kənd tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Ağarzayev Eldəniz Şirağa oğluna verilmiş A-374975 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Qarazəncir kənd tam orta məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Əliyev Salman Əzizulla oğluna verilmiş 180814 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Mədəni Maarif Texnikumu** (Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec) tərəfindən 2002-ci ildə Seyidova (Zərbalıyeva) Sevinc Mirkazım qızına verilmiş AB-II-086263 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağsu rayon** Daşdəmirbəyli kənd tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Məmmədov Yusif Bəxtiyar oğluna verilmiş E-523634 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 19 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Kazımov Elvin Sahib oğluna verilmiş A-011773 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Dəllər qəsəbə tam orta məktəbi 2000-ci ildə bitirmiş Əhmədova (Muradova) Aynurə Nadir qızına verilmiş A-392876 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Çinarlı qəsəbə tam orta ümumtəhsil məktəbin IX sinfini 2015-ci ildə bitirmiş Salmanov Turan Məzahir oğluna verilmiş 528584 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 220 nömrəli məktəb-liseyi 2005-ci ildə bitirmiş Əliyev Sənan Nazim oğluna verilmiş A-191761 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zəngilan rayon** 33 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Qurbanova Jalə Biləndər qızına verilmiş A-649348 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Muradxanlı kənd tam orta ümumtəhsil məktəbi 1992-ci ildə bitirmiş Əsədova (Osmanova) Şükufə Xudu qızına verilmiş A-200158 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 21 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Məmmədpur Sərxan İsrail oğluna verilmiş E-476244 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Aranlı kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1988-ci ildə bitirmiş Nuriyeva Sənubər Güloğlan qızına verilmiş A-282872 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 33 nömrəli tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Ələkbərov Ramil Məhəmməd oğluna verilmiş B-446599 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 46 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Kərimova (Niyazova) Aytəkin Şamil qızına verilmiş B-162329 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2000-ci ildə bitirmiş Mehdiyev Elmar Adil oğluna verilmiş A-410266 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 173 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Hüseynova Esmira Adil qızına verilmiş A-227283 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 158 nömrəli tam orta məktəbin VIII sinfini 1983-cü ildə bitirmiş Özbək Zadə İslam Səristan oğluna verilmiş 498688 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 116 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Əliyev Fəqan Güloğlan oğluna verilmiş B-687967 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Müsüslü kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Həmidova Şəfəq Vahid qızına verilmiş B-336083 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 281 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Mustafayeva Günel Bəhram qızına verilmiş A-357387 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2006-cı ildə Atayev Vüsal Nizami oğluna verilmiş B-061143 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2016-cı ildə Alıyeva Aysel İsa qızına verilmiş A-091302 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Məktəbəqədər Pedaqoji Texnikumu** (Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində Humanitar Kollec) tərəfindən 1999-cu ildə Mərdanova (Təhməzova) Yeganə Musa qızına verilmiş AB-II-049816 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 193 nömrəli tam orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Məmmədov Əhməd Dursun oğluna verilmiş A-796256 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 183 nömrəli tam orta məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Sevostyanova Anna Yuryevna qızına verilmiş 065746 nömrəli ümumi orta təhsil haqqında attestat (şəhadətnamə) itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Düzqışlaq kənd tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Əliyeva (İbrahimova) Ramilə Rəfayıl qızına verilmiş A-161448 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 153 nömrəli tam orta məktəbi 2025-ci ildə bitirmiş Məmmədova Şəfəq Kamran qızına verilmiş E-786390 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Şərəfxanlı kənd tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Xudiyev İlqar Şahlar oğluna 2025-ci ildə verilmiş E-540471 nömrəli tam orta təhsil haqqında dublikat attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Qaracəlli kənd əsas məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Kərimova (Aslanova) Şahmələk Fizuli qızına verilmiş 148324 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Ərəbxana kənd tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Həsənova Ruhi Abdul qızına verilmiş B-292663 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 311 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Bağırov Amil Anar oğluna verilmiş E-679070 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 9 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Rəsulov Cavid Ceyhun oğluna verilmiş E-223206 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 216 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Əzimov Rüfət Elçin oğluna verilmiş E-197935 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 19 nömrəli köçkün tam orta məktəbi 2015-ci ildə bitirmiş Mehralıyev Loğman Famil oğluna verilmiş A-451257 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır

**84 nömrəli Texniki Peşə Məktəbi** (Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 1996-cı ildə Quliyeva (Hümmətova) Aynur Aydın qızına verilmiş AB-034893 nömrəli diplom və A-530527 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Böyük Əmili kənd tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Hacıyev Murad Bəylər oğluna verilmiş E-593143 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** I Şahsevən kənd 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2003-cü ildə bitirmiş Abbasov Gündüz Yusir oğluna verilmiş 662976 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003
**Tiraj:** 37976 **Sifariş:** 2128
**Məsul növbətçi:** O.Mustafayev


**Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi**

## Gəncə Dövlət Universiteti Publik Hüquqi Şəxs

1938

aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR:

**Kafedralar üzrə boş olan vəzifələr:**

1. Azərbaycan dili - müəllim, 2 yer, 0,5 ştat;
2. Təhsilin pedaqogikası və metodikası - müəllim, 1 yer;
3. Fiziki tərbiyə, çağırışaqədərki hazırlıq və mülki müdafiə - müəllim, 1 yer; baş müəllim, 1 yer;
4. Ümumi pedaqogika - dosent, 1 yer;
5. Azərbaycan tarixi - müəllim, 1 yer; baş müəllim, 1 yer, 0,75 ştat;
6. Coğrafiya - müəllim, 1 yer, 0,5 ştat;
7. Sosial fənlər - baş müəllim, 1 yer; müəllim, 1 yer, 0,75 ştat; müəllim, 1 yer, 0,5 ştat;
8. Kimya - müəllim, 1 yer;
9. Botanika - baş müəllim, 1 yer, 0,75 ştat; müəllim, 1 yer, 0,5 ştat;
10. Anatomiya, fiziologiya və zoologiya - dosent, 1 yer;
11. Ümumi riyaziyyat - müəllim, 1 yer, 0,5 ştat;
12. İnformatika və cəbr - professor, 1 yer; baş müəllim, 1 yer, 0,75 ştat;
13. Riyazi analiz - baş müəllim, 1 yer; baş müəllim, 1 yer, 0,75 ştat;
14. Menecment və turizm işi - dosent, 1 yer; baş müəllim, 1 yer; müəllim, 4 yer;
15. İqtisadiyyat - dosent, 1 yer; müəllim, 1 yer;
16. İdarəetmə - baş müəllim, 1 yer;
17. Qrammatika və ingilis dilinin tədrisi - müəllim, 1 yer;
18. Leksika və ölkəşünaslıq - müəllim, 1 yer;

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 saylı əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması” Qaydalarına və 07.08.1996-cı il tarixli 401 saylı əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında” Əsasnaməyə uyğun olaraq elan olunduğu gündən 1 ay müddətində qəbul edilir.

**Ünvan:** AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429.
Gəncə Dövlət Universiteti, əsas bina (I)
**Telefon:** (022) 266-01-89

**REKTORLUQ**